# DÜŞÜNƏN İNSAN

№ 12 - Avqust 2012 - 2 AZN

# İslam asanlıq və saflaşma dinidir



- Ramazanda sağlamlığa diqqət yetirmək
- Özlərinə dərman istehsal edən canlılar
- Türk-İslam birliyi axan qanı dayandıracaq həll yoludur
- Yeriyən daşlar möcüzəsi
- ''Onsuz da mən cənnətə gedəcəyəm'' kimi düşünənlər

## 3 FİLM HƏDİYYƏ

MADDƏNİN ARDINDAKI SİRR

ŞEYTANIN SİLAHI: Romantizm

İNSANIN YARADILIŞI

# Düşünən İnsan jurnalının yeni saytı




## www.dushuneninsan.com

Artıq bütün əvvəlki sayların məqalələrini rahatlıqla oxuya bilər, Jurnalı PDF formatında yükləyə bilərsiniz.

facebook.com / dusunen.insan.jurnali



DÜŞÜNƏN İNSAN - Avqust 2012;
Elmi-kütləvi, mənəvi-psixoloji jurnal
Təsisçi və redaktor: Ziya Kazımov
Kompyuter dizaynı: Mirağa Niftəli
Ünvan: Bakı şəhəri, M.Şərifzadə küçəsi 78/57
Telefon: (050) 4662020; E-mail:admin@dusuneninsan.info
"Düşünən İnsan" jurnalı Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyatdan keçmişdir.Qeydiyyat No 3418

# DÜŞÜNƏN İNSAN

# içindəkilər



Heydər Əliyev və İlham Əliyev milli-mənəvi dəyərlər haqqında 3
Elmi-texnoloji xəbərlər 4
İslam dünyasında keçən ay 6
Bunları bilirsiniz mi? 13
Səs və qoxunu təqlid edən bacarıqlı canlılar 14
Sosial problemler din əxlaqına uyğun yaşamaqla həll olunur 22
Allah hər cür yalanı haram etmişdir 26















# içindəkilər




Bədənimizdəki elektrik sistemi 33

Təkamülçülər istəməsə də, elmi kəşflər yaradılış həqiqətini təsdiq edir 41

Ramazan ayı, oruc, qardaşlıq və gözəl əxlaq haqqında Peyğəmbərimizdən (s.ə.v) müsəlmanlara öyüd-nəsihət 42

Bir ayə, bir açıqlama 51

"Onsuz da mən cənnətə gedəcəyəm" kimi düşünənlər 58

Fosillər təkamülü təkzib edir 63





















İslam dini yüksək mənəvi dəyərlərə malik olan bir dindir. İslam dininin bəşər mədəniyyətinə, bəşər sivilizasiyasına verdiyi töhfələr və xüsusən mənəvi dəyərlər əvəzsizdir, misilsizdir.

**Heydər Əliyev**

Biz milli dəyərlərimizi, dini dəyərlərimizi təbliğ etməliyik. İslam dini qardaşlıq, dostluq dinidir. İslam dini dünyada sülhsevər meyilləri gücləndirir. Ona görə biz dinimizin həqiqi mahiyyətini dünyada daha da geniş şəkildə təbliğ etməliyik.

**İlham Əliyev**





# Elmi-Texnoloji Xəbərlər

## YARPAQDAN YANACAQ ƏLDƏ ETDİLƏR

Elm adamları laboratoriyada karbohidrat əvəzinə avtomobil və təyyarələrdə də istifadə ediləcək yanacaq hasil edən yarpaq yetişdirib.



“Daily Telegraph”ın verdiyi xəbərə görə, Qlazqo Universitetindən elm adamları laboratoriyada yetişdirdikləri bir yarpaqdan yanacaq əldə ediblər. “Turbo gücündə” tərif edilən bu yarpaq təbiətdəki yarpaqlar kimi fotosintezlə qidalanır. Ancaq fərq qidalanmasında deyil, hasil etdiyi maddədədir.

Bu yarpaqlar fotosintezdən sonra karbohidrat deyil, avtomobil və təyyarələrdə istifadə ediləcək yanacaq hasil edir. Bundan əlavə, yarpağın hasil etdiyi yanacaq istehlak edildikdə atmosferə də artıq qazın buraxılmasının qarşısı alınar və ətraf mühitə ziyan dəyməz.

Bu qəribə kəşfə 2 il ərzində “incə əyar” müəyyən edəcəklərini açıqlayan tədqiqatçılar 5 il sonra yarpağın kütləvi istehsalına başlayacaqlarını və yeni alternativ enerji mənbəyi kimi gündəmə gələcəyini nəzərdə tuturlar.

## Göyərçin beynində təəccüblü kəşf

Hyustonda Beylor Universiteti Tibb fakültəsindən iki elm adamı göyərçinlərin beynində dünyadakı maqnit sahələrini qavrayan neyronlar olduğunu kəşf edib.

Quşların dünyadakı maqnit sahələrinin yerini qavradıqları 1960-cı ildən etibarən məlumdur.

“Magnetoreception” adlandırılan bu xüsusiyyətin necə işlədiyi isə hələ açıqlanmamışdır.

“Discover” jurnalında dərc edilən xəbərə görə, ABŞ-dakı Beylor Universiteti Tibb fakültəsində Le-Qinq Vu və Devid Dikman adlı elm adamları göyərçinlər üzərində apardıqları tədqiqat nəticəsində bu heyvanların beyinlərində yer üzündəki maqnit sahələrini şifrələyən 53 neyron kəşf ediblər. “Maqnetik qavrama” mənasını verən “magnetoreception” mexanizminin araşdırılması üçün mühüm addım hesab edilən elmi fəaliyyət nəticəsində beyinin hansı hissələrinin bu mexanizmin işləməsində rol oynadığı üzə çıxarılıb.

Ancaq Vu və Dikman əldə etdikləri məlumatların “magnetoreception” tapmacasının cavabını tapmağa kifayət etmədiyini, hətta vəziyyəti daha da mürəkkəbləşdirdiyini bildiriblər.

İndiyə qədər quşların maqnit sahələrini qavramasını təmin edən detektorların gözlərində və dimdiklərində olduğu güman edilirdi. Ancaq son tədqiqat sözügedən neyronlarla bu iki üzv arasında heç bir əlaqə olmadığını göstərir.



### Genlər beyin və hafizənin yaşlanmasına da təsir edir



Beyin və hafizənin yaşlanmasına yol açan genlər ilk dəfə müəyyən edilib.

Beynəlxalq tədqiqat qrupunun apardığı iki tədqiqat beyinin hafizə və istiqaməti müəyyən etmədə rol oynayan hipokampus bölgəsindəki gen mutasiyalarının beyinin yaşlanmasının sürətlənməsi ilə əlaqədar olduğunu göstərib.

"Nature Genetics" jurnalında da dərc edilən tədqiqatlarda bu mutasiyaların beyinin təqribən 4 il tez yaşlanmasına səbəb olduğu bildirilib.

Tədqiqatlarda 56-84 yaşlı 9000-dən çox insanın genləri tədqiq olunub və 4 gendəki bəzi mutasiyaların hipokampusun yaşlanmasını sürətləndirdiyi məlum olub.

Kaliforniya Universitetindən Çarlz DeKarli hipokampusun yaşlandıqca kiçildiyini, ancaq bu kiçilmə sürətləndikcə Alçheimer xəstəliyinə tutulma riskinin artdığını vurğulayıb.

DeKarli "bu genlərin hipokampusun inkişafına və yaşlanmasına necə təsir etdiyini aşkar etdikdə bunun yaşlılıqla əlaqədar hafizə itkisini gecikdirmə və bəlkə də Alçheimer kimi xəstəliklərin təsirini azaltmaqda faydalı olacağını" bildirib.

### Cırcıramanın ayağı ən möhkəm məmulatdır

Elm adamlarının cırcırama ayağının quruluşu üzərində apardıqları tədqiqat ayağın elastiklik və möhkəmlik baxımından təbiətdəki ən dözümlü çoxtəbəqəli məmulat olduğunu göstərib.

İrlandiyanın Dublin şəhərindəki Triniti Kollecində mühəndis kimi çalışan Dr. Can Henninq Derksin rəhbərliyi altındakı elm adamları cırcıramanın ayağını bükərək çatlatmaq üçün nə qədər enerji lazım olduğunu müəyyən etmək məqsədilə tədqiq etmiş və tədqiqatı "The Journal of Experimental Biology" adlı elmi jurnalın internet səhifəsində dərc etdirmişlər.

Ayağı bükməklə çatlatmaq üçün lazımi enerjinin 5.56 kilocoul/m-2 olduğunu müəyyən edən tədqiqatçılar bunun tökmə poladı qırmaq üçün lazım olan enerjidən daha çox olduğuna diqqət çəkiblər.

Cırcırama ayağının insan sümüyündən daha möhkəm və sümük əsaslı buynuza bərabər möhkəmlikdə olduğunu deyən tədqiqatçılar bu nəticələrə əsasən cırcırama ayağının təbiətdəki ən möhkəm çoxtəbəqəli məmulat olduğunu qeyd ediblər.

Elm adamları cırcıramaların yüksək toqquşma qüvvəsinə davamlı sıçrayışlar etmək üçün bu cür möhkəm ayaqlara ehtiyacları olduğunu ifadə ediblər.

# İslam Dünyasında

**"Muhəmməd peyğəmbərin təcrübəsindən çıxış etmək lazımdır"**

"Yaddan çıxarmaq olmaz ki, yalnız birgə fəaliyyət sayəsində dini radikalizm, xurafat, dini savadsızlıq aradan götürüləcək"

"Cəmiyyətdə dinə qarşı təxribatlar hər zaman olub. Bunların hamısı xurafat, cəhalətlə əlaqəlidir". Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Elşad İskəndərov iyulun 17-də Qafqaz Müsəlmanları İdarəsində keçirilən mətbuat konfransında deyib. Ramazan ayının başlanması ilə əlaqədar keçirilən mətbuat konfransında Elşad İskəndərov bildirib ki, xurafatdan, cəhalətdən çıxış yolu maarifləndirmə işləri aparmaqdadır: "Maarifləndimə işinin əsas istiqamətlərindən biri Azərbaycanın tarixi ənənələrinə uyğun dini təbliğat aparılmasıdır. Bu təbliğatı isə mütləq Qafqaz Müsəlmanları İdarəsi ilə birgə reallaşdırmalıyıq".

Gənc nəslin dini biliklərinin səviyyəsindən söz açarkən Elşad İskəndərov təəssüflə vurğulayıb ki, bəzi gənclərdə iki-üç il namaz qılandan sonra radikal fikirlər formalaşır: "Belə gənclər özlərini daha çox haqlı sayır, qarşısındakını mühakimə etməkdən çəkinmir. Amma yaddan çıxarmaq olmaz ki, hətta kimisə mühakimə edəndə də Muhəmməd peyğəmbərin təcrübəsindən çıxış etmək lazımdır. Onun həyat təcrübəsi göstərir ki, hətta ədalətsiz şəxslərlə də necə mehriban davranılıb, onlara necə həlim yanaşılıb. Bu gün mühakimə etməkdən daha çox nəzakətli və əxlaqlı yanaşma hissi aşılanmalıdır. Azərbaycanda İslamın, dindarın əsas xüsusiyyəti bu olmalıdır. Tolerantlıq, dözümlülük bunlardan qaynaqlanır".

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Qafqaz Müsəlmanları İdarəsi ilə əlaqəli şəkildə fəaliyyət qurulmasının vacibliyini önə çəkib: "Din və dövlət xalqa, millətə layiqli vətəndaşlar yetişdirməlidir. Bunun üçün hər iki qurum arasında əlaqələndirmə olmalıdır. Bəzən bizim quruma siqnallar daxil olur ki, dini icma nümayəndələri Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin yerlərdəki əməkdaşları ilə əlaqə saxlamaq istəmirlər. Amma yaddan çıxarmaq olmaz ki, yalnız birgə işin sayəsində dini radikalizm, xurafat, dini savadsızlıq aradan götürüləcək".

Elşad İskəndərov Qafqaz Müsəlmanları İdarəsinin hazırladığı xütbə və moizələr planını müsbət qiymətləndirib: "Bu planda mövzular müəyyənləşdirilir. Onun böyük əhəmiyyət daşıdığına əminik. Dini təhsilə gəlincə, bununla bağlı gözləmələrimiz çoxdur. Yetər ki, bu istiqamətdə bütün imkanlardan istifadə olunsun".



# Keçən Ay

## MOSKVADA HALAL MƏHSULLAR YARMARKASI AÇILIB

Rusiyanın paytaxtı Moskvada bu il üçüncü dəfə "Moscow Halal Expo 2012" qapılarını insanlara açıb.

Moskvadakı "Bütün Rusiya Yarmarkaları Mərkəzi"ndə 7-10 iyun tarixlərində təşkil olunmuş yarmarkada 150-dən çox yerli və əcnəbi halal məhsul istehsal edən firma toplanıb. Təqribən 23 milyon müsəlmanın yaşadığı Rusiyada halal məhsul sənayesinin məhsullarının nümayiş etdirildiyi yarmarkaya 10 min nəfərin gələcəyi nəzərdə tutulmuşdu, lakin yarmarkaya vətəndaşlar böyük maraq göstərir.

Ət məhsullları, toxuculuq, kitab nəşri, bank xidmətləri, İslami turizm kimi müxtəlif xidmət sektorlarının təmsil etdiyi yarmarkanın açılış mərasimi Rusiya Müftülər Şurasının rəhbəri Ravil Qaynuttin tərəfindən həyata keçirilib.



## Ayasofyada azan səsləri yüksəldi

İstanbulun fəthinin 559-cu ili münasibətilə Ayasofyada Quran və azan səsləri yüksəlib. TRT 1 kanalı tərəfindən canlı yayımlanan proqramda Ayasofyada azanı 4 hafiz eyni anda oxuyub.

Ayasofyanın qarşısında toplanan vətəndaşlar yüksələn Quran və azan səsləri ilə böyük sevinc hissi keçiriblər. Vətəndaşlar əvvəlcə Quran tilavəti dinləyib, sonra bu tilavəti müəzzinlərin salavat səsləri əvəz edib. Ayrı-ayrı müəzzinin səsindən müxtəlif yerdlərdə oxunan salavat Ayasofyaya coşğunluq gətirib. Bunun ardınca Mehtər dəstəsi möhtəşəm nümayiş göstərib.





# ORQANİZMDƏKİ QÜSURSUZ TƏHLÜKƏSİZLİK SİSTEMİ

Vazopressin hormonunun xüsusiyyətlərindən biri qan damarlarını daraltmaq və bu yolla qan təzyiqini artırmaqdır. Bu xüsusi dizayn olunmuş təhlükəsizlik sistemidir və insanın xüsusi olaraq yaradıldığını sübut edir.

Bu təhlükəsizlik sisteminin işləməsi hərtərəfli planlaşdırılmışdır. Ürəyin mədəcik hissəsinə və ürəyə gedən damarların içinə qan təzyiqini ölçən xüsusi reseptorlar yerləşdirilmişdir.

Məlumdur ki, insan qan təzyiqini ölçmək üçün texnoloji cihazlardan istifadə edir. Bu cihazlar bir çox müxtəlif elm sahəsinə mənsub mütəxəssisin birgə fəaliyyəti ilə icad edilmişdir və qabaqcıl texnologiya ilə istehsal edilir. Halbuki, ürəyimizdə eyni funksiyanı gözlə görünməyən çox kiçik molekullar həyata keçirirlər. Bəs bu reseptorlar qan təzyiqini necə ölçür, təzyiqdəki fərqi necə qavrayırlar? Bu reseptorlar ürəyə, məhz lazımi yerə necə yerləşdiriliblər? Bütün bu sualların cavabı insana Allahın varlığını və Onun elmini göstərir. Bu reseptorlardan çıxan sinirlər isə sanki kabel rabitəsi kimi hipofiz vəzinə bağlanıblar. Normal qan təzyiqi ilə bu reseptorlara daima impuls göndərilir və bu kabellər vasitəsilə hipofiz vəzinə müntəzəm elektrik axını ötürülür. Hipofiz vəzi isə bu siqnalları aldıqda vazopressin hormonunun ifraz edilməsini dayandırır. Bu, təhlükəsizlik şirkətinin iş sisteminə bənzəyir. Təhlükəsizlik şirkətinin daima hazır vəziyyətdə gözləyən işçiləri həyəcan siqnalının qurulduğu evdən müsbət xəbər aldıqda hərəkətə keçmirlər. Bəs təhlükəsizlik şirkəti, yəni hipofiz vəzi nə vaxt hərəkətə keçir? Ciddi qanaxma olduqda insan çox qan itirir və damarlarındakı qan miqdarı azalır. Bu da qan təzyiqinin düşməsinə səbəb olur ki, aşağı qan təzyiqi xəstə üçün çox təhlükəlidir.

Qan təzyiqi düşdükdə damarların və ürəyin içində yerləşən reseptorların hipofizə göndərdiyi impuls da kəsilir. Bu isə hipofizin həyəcan vəziyyətinə keçməsinə və vazopressin



hormonu ifraz etməsinə səbəb olur. Hipofizin impulsun kəsilməsindən dərhal xəbərdar olaraq hərəkətə keçməsi isə çox şüurlu hərəkətdir. Halbuki, bu şüurlu hərəkətlərin hamısı bəzi atomlardan ibarət kiçik molekullara aiddir.

Vazopressin hormonu dərhal qan damarlarının ətrafında yerləşən əzələlərin gərilməsinə səbəb olur və bu proses qan təzyiqinin qalxmasını təmin edir. Çox mürəkkəb, bir-birilə əlaqədar işləyən və bir çox hissədən ibarət bu sistem çox düşündürücüdür.

**Vazopressin hormonunu hazırlayan hipotalamus hüceyrələri özlərindən çox uzaqda yerləşən damarların ətrafındakı əzələ hüceyrələrinin quruluşunu haradan bilirlər?**

**Qan təzyiqinin artması üçün bu damarların gərilməli olduğunu haradan öyrəniblər?**

**Bu hüceyrələrin gərilməsini təmin edən kimvəyi formulu necə hazırlayıblar?**

**Ürək və hipofiz arasındakı rabitə şəbəkəsinin qurulması ilə bu cür qüsursuz həyəcan sistemi necə meydana gəlib?**

Şübhəsiz ki, ortada mükəmməl yaradılış var. Bu, insanın şüursuz təsadüflər nəticəsində əmələ gəlmədiyini, onu Allahın yaratdığını göstərir. Təkamülçülərin orqanizmdəki xəbərləşmə və həyəcan sisteminin təsadüfən əmələ gəlmədiyini, hüceyrələrin öz-özünə bu sistemi düşünərək qurduğunu iddia etməsi məntiqsizdir. Belə bir iddia bir əraziyə yığılmış sement, kərpic, elektrik kabeli kimi materialların fırtına nəticəsində əvvəlcə təsadüfən bir göydələn əmələ gətirdiyini, daha sonra ikinci fırtına ilə bu göydələnin içində elektrik sistemi qurduğunu, ardınca üçüncü fırtına ilə binanın içində mükəmməl təhlükəsizlik sistemini təşkil etdiyini iddia etməyə bənzəyir. Ağıl və vicdan sahibi heç bir insan bu cür məntiqsiz iddianı qəbul etməz. Ancaq təkamülçülərin iddiası bundan da məntiqsizdir. Allahın varlığını inkar etməkdə (Allahı tənzih edirik) israr edən təkamülçülər söylədiklərinin ağıldankənar olduğunu nəzərə almadan təkamül nəzəriyyəsini müdafiə edirlər. Halbuki, Allahın varlığı və göydən yerə qədər hər şeyi mükəmməl yaradılışla yoxdan var etdiyi çox açıq həqiqətdir.



# TÜRK-İSLAM BİRLİYİ AXAN QANI DAYANDIRACAQ HƏLL YOLUDUR

İslam əxlaqının kökündə birlik var. Allah Quranda **“Əgər siz bunu etməsəniz (bir-birinizə yardım etməsəniz), yer üzündə fitnə və böyük fəsad baş verər. (Ənfal surəsi, 73)”** ayəsi ilə yer üzündəki fitnə-fəsadın sona çatması üçün iman gətirənlərin bir-birlərilə dost olmasını, birləşməsini bildirmişdir. Bütün müsəlmanlar bu əmri yerinə yetirməklə məsuldur. Türk-İslam dünyası bu birliyi istəməlidir. Birlik istəməyən ayrılıq istəyir və ayrılığın Türk-İslam dünyasına heç bir faydası yoxdur. Müsəlmanların gücü, qüvvəsi və mənfəəti birlikdədir. Müsəlman aləminin bir hissəsində əziyyət sadəcə xarici qüvvələrdən qaynaqlanmır, müxtəlif etnik qrup, məzhəb, millətlərdən olan müsəlmanlar arasında da, Quran əxlaqına tamamilə zidd olaraq - qarşıdurmalar baş verir. Allahı, dini, Kitabı, Peyğəmbəri bir olan və Allahın əmrilə qardaş olmalı müsəlmanların bir-birilə mübarizə aparması, şübhəsiz, düşündürən vəziyyətdir. Çünki Qurana əsasən, möminlərin birləşməsi fərzdir. Ayələrdə belə buyurulur:

Hamılıqla Allahın ipinə möhkəm sarılın və ayrılmayın! Allahın sizə verdiyi nemətini xatırlayın ki, siz bir-birinizə düşmən ikən, O sizin qəlblərinizi birləşdirdi və Onun neməti sayəsində bir-birinizlə qardaş oldunuz. Siz oddan olan bir uçurumun kənarında ikən O, sizi oradan xilas etdi. Allah Öz ayələrini sizin üçün bu şəkildə aydınlaşdırır ki, haqq yola yönəlmiş olasınız! (Ali-İmran surəsi, 103)

**Həqiqətən, möminlər qardaşdırlar. Buna görə də qardaşlarınızın arasını düzəldin və Allahdan qorxun ki, bəlkə, rəhm olunasınız! (Hucurat surəsi, 10)**

**Allaha və Onun Elçisinə itaət edin, bir-birinizlə çəkişməyin, yoxsa zəifləyər və gücdən düşərsiniz. Səbir edin, çünki Allah səbir edənlərlədir! (Ənfal surəsi, 46)**

**Kafirlər də bir-birinin dostudurlar. Əgər siz bunu etməsəniz (bir-birinizə yardım etməsəniz), yer üzündə fitnə və böyük fəsad baş verər. (Ənfal surəsi, 73)**



**O kəslər ki, haqsızlığa məruz qaldıqda birləşib müqavimət göstərərlər. (Şura surəsi, 39)**

**Şübhəsiz ki, Allah Öz yolunda möhkəm divar kimi səf çəkib döyüşənləri sevər! (Saff surəsi, 4)**

Burada müsəlmanların birləşməsi ilə bağlı sadəcə bir neçə ayəyə yer verilmişdir. Bu ayələrdən və Qurandan açıq şəkildə başa düşüldüyü kimi:

-Müsəlmanların birləşməsi
-Qardaşcasına sevgi və şəfqətlə bir-birlərinə bağlı olması
-Çəkişib mübarizə aparmaması
-Bir-birlərinin dostu olması
-Bir-birlərini hər şəraitdə qoruması
-Bir-birləri ilə məsləhətləşməsi
-Bir-birlərinə möhkəm divar kimi səf bağlayaraq kafirlərə qarşı elmi mübarizə aparması fərzdir.
-Bu təqdirdə, bütün bunların əksinə hərəkət etmək, yəni:
-Birləşdirici deyil, ayırıcı olmaq,
-Müsəlman qardaş-bacılarına sevgi və şəfqətlə yanaşmamaq,
-Müsəlman qardaş-bacılarına mərhəmətli olmamaq, onları qorumamaq,
-Kafirlərə qarşı aparılan elmi mübarizədə müsəlmanlarla möhkəm divar kimi səf bağlamamaq haramdır.

Əgər İslam aləmi güclü, sarsılmaz, firavan sivilizasiya olmaq, dünyaya hər sahədə istiqamət vermək və aydınlatmaq istəyirsə, birlik olaraq hərəkət etməlidir. Bu birliyin olmaması, müsəlman ölkələr arasındakı ayrılıq və dağınıqlıq, İslam dünyasından ortaq səsin yüksəlməməsi məzlum müsəlman xalqlarını da müdafiəsiz qoyur. Fələstində, Kəşmirdə, Şərqi Türküstanda, Moroda və başqa bir çox ölkədə məzlum qadınlar, uşaqlar və yaşlılar ehtiyac içində zülmdən xilas olmağı gözləyirlər. Bu məsum insanlara görə hər kəsdən əvvəl İslam dünyası məsuliyyət daşıyır. Müsəlmanlar Peyğəmbərimizin (s.ə.v) "müsəlman müsəlmana zülm etməz və onu təhlükədə qoymaz" sözünü unutmamalıdır.

Dünya müsəlmanlarının güclü və aktiv Türk-İslam Birliyini qurmaması dövrümüzdəki müxtəlif problemlərin kökündə duran ən əsas çatışmazlıqdır. Güclü birlik qurduqda bu gün baş verən problemlərin bənzərləri ilə ya heç qarşılaşılmayacaq, ya da qarşıya çıxan bütün problemlər nəzərdə tutulduğundan da qısa müddətdə həll olunacaq.

İslam dünyasında müxtəlif millətlər, adət-ənənələr və dünyagörüşlərinin olması çox təbiidir. Əsas odur ki, bu fərqlər inanc birliyi altında, çoxluğa əsaslanan həmrəylik içində toplansın. Dünyagörüşü, fikirlər və davranış fərqləri hər millətdə rast gəlinən normal hallardır. İslam əxlaqının tələbinə uyğun olaraq, bütün fərqlərə baxmayaraq, müsəlmanlar bir-birlərinin qardaşı olduğunu unutmamalıdırlar.

İrqi, dili, vətəni, məzhəbi nə olsa da, bütün müsəlmanlar qardaşdırlar. Buna görə, İslam dünyasındakı fərqlər zənginlik kimi dəyərləndirilməli, bunlar müsəlmanların bir-birləri ilə çəkişməsinə səbəb olan, onları əsas məsələlərdən uzaqlaşdırıb təcili problemlərin həllinə mane olan qarşıdurma və ayrı-seçkilik səbəbinə çevrilməməlidir.

Müsəlmanların bir-birlərilə münasibətlərindən əsas ölçü qarşılarındakı insanın irqi, etnik mənşəyi, dili kimi xüsusiyyətləri, imkanları, mövqeyi deyil, imanı və gözəl əxlaqıdır. Səmimi iman gətirən insanlar arasında sevgi onların Allahdan qorxub çəkinməsinə, Rəbbimizə bəslədiyi dərin sevgiyə, etdiyi əməllərə, gözəl əxlaqına görə formalaşır. Əgər bir insan həyatını Allaha həsr etdiyini bütün davranışları ilə sübut edir, hər anında Allahın rizasını və rəhmətini istəyərək gözəl davranırsa, möminlər o insana sevgi və hörmət bəsləyərlər. Bu insanın dərisinin rəngini, milliyyətini, maddi imkanlarını əsas götürməz, bu xüsuslar ona olan sevgilərinə mənfi və ya müsbət təsir etməz. Eyni xüsuslar müsəlman millətlər arasındakı münasibətlərə də aiddir. İki müsəlman millət arasındakı münasibətlər Quranda bildirildiyi kimi olmalıdır.

Müsəlmanlar birlikdə hərəkət etməyə mane olan məsələlərdə bunlar üzərində düşünməlidirlər:

Bu məsələ İslam ittifaqını zədələyəcək qədər mühümdürmü?

Bu məsələdə uzlaşmaq mümkün deyilmi?

İnkarçı ideologiyalara qarşı fikri mübarizə aparmaq əvəzinə müsəlman millətlə çəkişmək doğrudurmu?

Bu suallara vicdanını dinləyərək cavab verən hər insan sonu olmayan çəkişmələrdən uzaq durmağın və müsəlmanlar arasındakı Quran əxlaqına əsaslanan bu ittifaqı qorumağın vacib olduğunu görər.

İslam dünyası ayrı-seçkiliyi və fərqləri bir kənara qoyub bütün müsəlmanların qardaş olduğunu xatırlamalı və bu mənəvi qardaşlığın qazandırdığı gözəl əxlaq ilə bütün dünyaya nümunə olmalıdır. İman gətirənlərin bir-birləri ilə qardaşlığı uca Allahın lütfü və nemətidir. Səmimi müsəlmanlar bu nemət üçün Rəbbimizə şükür etməli və Allahın "parçalanıb ayrılmayın" əmrini unutmamalıdırlar.





# BUNLARI BİLİRSİNİZ Mİ?

## Zülalın quruluşuna 30.000 kompyuterin çata bilmədiyini...

Zülalın üçqat bükülməsinin kompüterlə təqlid edildiyi araşdırma hüceyrədəki möcüzəvi yaradılışı bir daha sübut etdi.

Stenford Universitetinin fizio-kimyaçısı Viyaj Pandenin apardığı tədqiqatda zülalın bükülməsini virtual mühitdə həyata keçirəcək kompyuter şəbəkəsi təşkil edildi. Ancaq zülalın bükülməsində baş verən proseslər o qədər çox idi ki, bunları uğurlu şəkildə təqlid etmək üçün internet könüllülərinə aid düz 30.000 kompyuterdən istifadə edildi (Eurakalert.com: Finding a 'Holy Grail': simulated and experimental protein folding compares nicely, 20 oktyabr 2002). İki il ərzində davam etdirilən məlumat toplama işində kompyuterlər bir milyon saatdan çox işləyib.

İnsan orqanizmində baş verən çoxsaylı prosesdən sadəcə çox kiçik hissəyə aid bu tədqiqat qüsursuz yaradılışı göstərir. Allah üstün güc sahibidir, hər cür yaratmağa qadirdir.

## Kalsiumun orqanizmimiz üçün nə qədər vacib olduğunu...

Sağlam orqanizm üçün lazımi minerallardan biri kalsiumdur. Bu mineral sümüklərimizdə çox miqdardadır. Kalsiumun miqdarı həddindən artıq azaldıqda, diş və bel ağrıları, sümüklərdə kövrəlmə, çatlama və sınma müşahidə olunur. Orqanizmdəki kalsium miqdarı təkcə sümüklər üçün vacib deyil. Kalsium, Rəbbimizin iznilə, eyni zamanda, orqanizmdəki bütün proseslərdə rol oynayır. Xüsusilə orqanizmdə dəmirin istifadəsi və qəbul edilən qidaların hüceyrə qılafından keçməsi üçün vacib mineraldır.

Hüceyrələrin funksiyalarını yerinə yetirməsi, sinir impulslarının göndərilməsi, əzələlərin inkişafı və gərilməsi, qanın laxtalanması, hamiləlik zamanı körpənin sümüklərinin inkişafı üçün çox vacibdir. Bundan əlavə, körpəni qurğuşun zəhərlənməsindən qoruyur, böyrək daşlarının əmələ gəlməsinin qarşısını alır, ürək infarktı risklərini azaldır, bədəni enerji ilə təmin edir, müxtəlif fermentləri hərəkətə gətirir, orqanizmin yaxşı həzm etməsi üçün yağları parçalayır, dərinin sağlam qalmasına kömək edir.

# SƏS VƏ QOXUNU TƏQLİD EDƏN BACARIQLI CANLILAR









Bir quşun özünü yaralı göstərərək düşmənlərindən xilas olacağını, bir həşəratın termit qoxusunu təqlid edərək termit yuvasında gizlənəcəyini, bir tırtılın kraliça qarışqanın səsini təqlid edərək qarışqa koloniyasında kraliça münasibəti görəcəyini bilməsi qeyri-mümkündür. Uca Rəbbimiz təbiətdəki canlıların hər birini yaşadığı mühitə uyğun müxtəlif xüsusiyyətlərlə yaratmışdır. Bu xüsusiyyətlərdən biri də canlıların düşmənləri tərəfindən tanınmasının qarşısını almaq və yem tapmaq üçün yaradılan təqlid qabiliyyətidir.

Təqlid müşahidə, diaqnoz, hafizə və nəticə çıxarma kimi ağıl tələb edən xüsusiyyətlərlə ortaya çıxan bacarıqdır. Bu bacarığın ən mühüm mərhələsi isə müşahidə aparmaqdır. Bir insanın səsini, qoxusunu və ya hərəkətlərini təqlid etmək üçün onu hərtərəfli təhlil etmək lazımdır. Müxtəlif mərhələlərdən keçən bu bacarıq milyonlarla il əvvəl ilk yaradıldıqları gündən bəri bəzi canlılar tərəfindən müdafiə və yem tapmaq məqsədilə istifadə edilir.



Əslində, bu insanlar onlara bəxş edilən bu xüsusiyyətlər sayəsində müdafiə olunduqlarını və həyatlarını davam etdirdiklərini dərk etmirlər. Ancaq Uca Allahın ilhamı ilə onlara nemət kimi verilən bu xüsusiyyətlərdən ustalıqla istifadə edirlər. Sonsuz mərhəmət və elm sahibi Rəbbimiz canlılar üzərində təcəlli edən elmini ayədə belə bildirir:

**Şübhəsiz ki, heyvanlarda da sizin üçün bir ibrət vardır... (Nəhl surəsi, 66)**

## Təqlid ustası quşlar

Venesuela meşələrində yaşayan patu quşu təqlid ustasıdır. Quşun tükləri və üstünə qonduğu ağacın qabığı bir-birinə çox bənzər yaradılmışdır. Bu cəhətdən canlının təbii kamuflyajı var. Kötüyün üstündə onu görmək çox çətindir. Bu xüsusiyyətindən əlavə, quş ağac kötüyünü sanki təqlid edir. Yanına yaxınlaşdıqca quş təqlidini daha da təkmilləşdirmək üçün hərəkətə keçir. Çox yavaş şəkildə quyruğunu endirir, onu ağac kötüyünün oyuğuna soxur. Beləcə, quşla ağacın birləşmə yeri bilinmir.

Quşu ələ verəcək yeganə ipucu dimdiyi və gözləridir. Buna görə, eyni tərzdə yavaşca dimdiyini dik şəkildə göyə doğru uzadaraq başını qaldırır, gözlərini yumur və möhkəm gərilir. Quşdan 90 sm uzaqda olduqda belə quş hərəkətsiz və donuq durur. Bu sayədə ağac kötüyündən onu ayırd etmək qeyri-mümkün olur.

Təhlükə

uzaqlaşdıqda isə quş rahatlayır və təqlidinə son verir

(David Attenborough, The Life of Birds, səh.164).

## Balasını qorumaq üçün yaralı təqlidi edən qızıl quşu

Pataqoniyada yaşayan qızıl quşu yuvasını açıq sahələrdəki otlaqlarda qurur. Ana quşun qarnında böyüyən yumurtanın səthi yumurtlamazdan dərhal əvvəl torpaq naxışı ilə örtülür. Bu naxışlar yumurtanın kamuflyajı üçün yaradılan xüsusi müdafiədir. Beləliklə, yumurtalar otların arasında görünmürlər. Bir təhlükə, yırtıcı quş və ya insan yuvaya yaxınlaşdıqda isə qızıl quşu heyrətamiz təqlid nümayiş etdirir: quş yuvasından çıxaraq qaçmağa başlayır. Sonra otların üzərində yaralı və qanadı qırılmış quş təqlidi edir. Yad canlı ona doğru yaxınlaşdıqda yenidən qaçmağa başlayır. Aradakı məsafə açılarsa, dərhal yerə yataraq yaralı təqlidini təkrarlayır. Məqsədi yaxınlaşan düşmənin diqqətini yuvadan ayırmaqdır. Təhlükəni kifayət qədər uzaqlaşdırdıqda təqlid sona çatır. Qızıl quşu uçaraq yuvasına geri qayıdır. (Russel Freedman, How Animals Defend Their Young? səh.51 Harika Canlılar - 3 Belgeseli)





Göründüyü kimi, quş burada möhtəşəm ağıl işlədir və təqlid nümayiş etdirir. Bu ağıl və bacarığın quşa aid olmadığı, quşun bütün bunları uca Rəbbimizin ilhamı ilə etdiyi aşkardır. Allahın canlılar üzərindəki hakimiyyəti bir Quran ayəsində belə bildirilmişdir:

**... Elə bir canlı yoxdur ki, (Allah) onun kəkilindən tutmuş olmasın... (Hud surəsi, 56)**

## Bayquşun müdafiə məqsədli təqlidləri

Bala bayquşu qorxutduqda çölə açılan qanadlarını və başındakı tüklərini çox iri görünənə qədər qabardaraq qorxuducu görkəm alır. Bir tərəfdən də böyük gözlərini sonacan açaraq dəvətsiz qonaqlara baxır. Bu sayədə bala bayquşun üzü daha böyük heyvanın üzü kimi görünür.

Gözə bənzər xalları olan bayquşun (Glaucidium perlatum) başının arxasında diqqətçəkən gözləri olan təqlidi üz var. Uca Allahın bayquşa xüsusi bəxş etdiyi bu təqlidi üz arxadan gələn düşmənləri uzaqlaşdırır. (Prof. Peter JB Slater,The Encyclopedia of Animal Behaviour, səh.62)

## Termitin qoxusunu təqlid edən həşərat

Yırtıcı redovid böcəyi (Salyarata varilgata) ağaclarda yaşayan termit növü ilə qidalanır. Ovunu tutma taktikası çox maraqlıdır. Əvvəlcə termit yuvasındakı qidaların arasında gizlənir. Termitlərin özünəməxsus qoxuları var. Termitlər kordur və yuvalarına girən düşmənlərini də qoxu fərqindən tanıyırlar. Termit yuvasında gizlənən redovid böcəyi də bir müddət sonra termit qoxusu verməyə başlayır, buna görə öz qoxusu bilinmir. Bu həşərat düşmənlərinə qarşı yırtıcı olan termitlərin hücumundan termit qoxusunu təqlid edərək qorunur.

## Kraliça qarışqanın səsini təqlid edən tırtıl

Bir tırtıl növünün qarışqaların hücumundan xilas olmaq üçün kraliça qarışqanın çıxardığı səsləri təqlid etdiyi məlum olub.

Oksford Universitetindən Ceremi Tomas və tədqiqat qrupunun apardığı və "Science" jurnalında dərc olunan araşdırmaya əsasən, maculinea rebeli növündən olan kəpənəyə çevrilən tırtıl növü düşmən qarışqalardan xilas olmaq üçün myrmica schenki növündən olan kraliça qarışqanın səsini təqlid edir. Beləliklə, qarışqaları "hipnoz edən" tırtıl işçi qarışqalar tərəfindən yuvaya aparılır və burada kraliça kimi qayğı görür. Qarışqa yuvalarının içinə miniatür mikrofon və səsgücləndirici yerləşdirən və kraliça qarışqanın işçi qarışqalara ünvanlanan səsini qeyd edib səsləndirən Tomas və tədqiqat qrupu kraliçanın səsini eşitdikdə bığcıqları havada və çənələri açıq saatlarla hərəkətsiz dayanan işçi qarışqaların tırtılın təqlid etdiyi səs qarşısında da eyni vəziyyətdə gözlədiyini görüblər. Tırtılın bu taktikası digər bəzi qarışqa növlərində işə yaramır. Başqa qarışqa növləri bəzi kimyəvi maddələr yayaraq maculinea rebeli tırtılını ifşa edə bilirlər.



# YERİYƏN DAŞLAR MÖCÜZƏSİ

ABŞ-nın Kaliforniya ştatında Ölüm vadisi adlanan vadi yerləşir. Bu vadidə çox möcüzəvi hadisə baş verir.

Ayaqları, qolları, əzələləri və hətta beyinləri belə olmayan daşlar kilometrlərlə yol boyu yeriyir!

Həm kiçik, həm də çox ağır daşlar gah dalğavari, gah ziqzaq, gah da düz xətt üzrə vadi boyu yeriyirlər. Həm də bir istiqamət üzrə deyil, müxtəlif istiqamətlərdə...

Yeriyən daşlar ilk dəfə aşkar edildikdə elm dünyasında böyük əks-səda doğurmuş və elm adamları bu əsrarəngiz hadisəni dərhal araşdırmağa başlamışdılar.

Ancaq illərlə aparılan tədqiqatlara baxmayaraq, uzun müddət heç nə əldə edə bilmədilər. Ta ki yaxın dövrə qədər...

Vadidə heç vaxt yağış yağmaması və zəlzələ olmaması bütün digər ehtimalları aradan çıxardı. Daşların yuxarıya doğru da hərəkət edə bilməsi bu hadisənin bölgədəki maqnetik sahə ilə əlaqədar olmadığını təsdiqlədi.

2010-cu ilin baharında NASA-dan tədqiqatçılar vadini təhlil etməyə başladılar. Düz əraziyə ötürücülər yerləşdirildi. Bu ötürücülər 3/4 qarış və 3 qarışlıq dərinliyə basdırıldı.

Cihazlar mart ayında torpağın ən üst təbəqəsində şaxta olduğunu, aprel ayında isə 3 qarış dərinliyə qədər torpağın nəm olduğunu göstərdi. Bu məlumatlara əsaslanaraq tədqiqat qrupu bir nəticəyə gəldi. Mart ayında ətrafdakı dağlara yağan qar incə təbəqə şəklində vadiyə axır, gecə vaxtı daşların altında su dolur və beləliklə, buz halqası meydana gətirirdilər. Aprel ayında isə vadiyə ikinci dəfə incə su təbəqəsi axdıqda daşın altında qalan buz halqaları bir növ qayıq kimi daşların süyün üzərində üzməsinə səbəb olurdu.

Buz halqaları şüşə kimi möhkəm olduğuna görə, vadinin üzərində iz qoyur, ancaq sonra əriyərək yox olduqda geridə ancaq daşlar və daşların yeridiyi cığırlar qalırdı.

# İmanın dərinləşməsində çətin anların rolu

Uca Allah dünya həyatında insanları çətinliklərlə sınayacağını bildirmişdir. Bu çətinliklərlə müsəlmanlar da, iman gətirməyənlər də qarşılaşırlar. Ancaq bunlar iman gətirməyənlər üçün əzaba, Allahın hər şeyi xeyirlə yaratdığını bilən saleh müsəlmanlar üçün isə bənzərsiz gözəlliyə çevrilir. Möminlərin imanlarının dərinləşməsinə səbəb olan çətinlik, eyni zamanda, sevinc, dərin sevgi və bağlılığın qaynağıdır.

Çətin anların möminlərin həyatında böyük rolu var. Çünki möminlər hər çətinlik və yoxluq anında cəsur, təvəkküllü, fədakar və mərhəmətli olmaqla məsuldurlar. Bu öhdəliyin şüurunda olan, hər hadisəni təvəkküllə qarşılayan, hadisələrin hikmətini və xeyirli istiqamətini görməyə çalışan, ətrafındakı insanları da eyni əxlaqı yaşamağa dəvət edən bir müsəlman çətin vəziyyətlər qarşısında rəftarını dəyişdirməz. Quranda elçilərin və saleh möminlərin qarşılaşdıqları çətinliklər bizə nümunə verilir. Saleh möminlər çətin sınaqlardan keçirilmiş, ancaq bunun qarşısında üstün əxlaq göstərmişlər.

Uca Allah Quranda bütün inananların çətinliklərlə qarşılaşacağını bildirmiş və səbir edənləri sonsuz gözəlliklərlə müjdələmişdir. Müsəlmanların qarşılaşdıqları çətinliklər Quran əxlaqının göstərilməsi baxımından ən qiymətli zamanlardır. Ayədə bildirildiyi kimi, müsəlmanlar çətin anlarda üst-üstə gələn çətinliklər qarşısında **"…Biz, Allaha məxsusuq və Ona da qayıdacağıq! (Bəqərə surəsi, 156)"** cavabını verən insanlardır.

Hər insan çətinliklə qarşılaşdıqda içində iki fərqli səs eşidir. Bunlardan biri fədakarlığı, cəsarəti, gözəl əxlaqı və Allahın dilədiyi şəkildə davranmağı əmr edən vicdanın səsidir. Bu səsi dinləyən insan uca Allahın razı olacağını ümid etdiyi rəftarı göstərər, səbri və təvəkkülü seçər. İkinci səs isə "Yusuf" surəsinin 53-cü ayəsində də bildirildiyi kimi, pis işlər görməyi əmr edən nəfsin səsidir. Bu səs insana üsyanı, eqoistliyi və qorxaqlığı pıçıldayır. Bu səsi dinləyənlər isə böyük itkiyə uğrayar və nəfsə təsir edən şeytanı özlərinə dost seçərlər. İnsanların nəfslərinə uyaraq necə itkiyə uğrayacaqlarını anlamaq üçün şeytanın bu insanlar üzərindəki təsirinin hansı formada reallaşdığını bilmək lazımdır. Quranda bu mövzuda ətraflı məlumat verilir və möminlər şeytanın tələlərinə qarşı xəbərdar edilirlər.

Şeytan insanları doğru yoldan döndərmək üçün hər cür yolu sınayaraq, şükür etmələrinə və gözəl əxlaq göstərmələrinə mane olmağa çalışır. Bunun nəticəsində də insanların böyük hissəsini öz tərəfinə çəkir.

Nəfs də şeytanın insanları aldatmaq və doğru yoldan döndərmək üçün istifadə etdiyi səsdir. Bu səbəblə, şeytan insana çətinliklə qarşılaşdıqda həmişə eqoistliyi pıçıldayır, öz mənfəətini düşündürür, fədakarlığı, şəfqəti və mərhəməti pis və çətin göstərir.

Buna görə də, müsəlmanların hər hansı bir çətinlik, ya da müsibət qarşısında dərhal



vicdanlarına uymaları çox əhəmiyyətlidir. Çünki önlərindəki iki variantdan biri şeytanın tərəfdarlarının yoludur. Bu yolda eqoistlik, mənfəətpərəstlik, rahatlığını düşünən, ikiüzlülük, yəni pis əxlaqa dair bir çox xüsusiyyət durur.

Digəri isə saleh möminlərin yoludur. Müsəlmanlar vicdanlarının səsini dinləyir və həmişə yaxşıların yolunu tuturlar.

Onu da xatırlatmaq lazımdır ki, müsəlmanın gündəlik həyatında müxtəlif çətinliklərlə qarşılaşması həm imtahanıdır, həm də axirətdə qovuşmağı ümid etdiyi cənnət yurdu ilə müqayisə edəcəyi xoşbəxtlik səbəbidir. Bunlar çətinliklərlə rahatlığın müqayisə edilməsindən meydana gələn yüksək zövqün də qaynağıdır.

Çətinlik anlarında möminin göstərdiyi gözəl əxlaq dünyada digər möminlərin o insana qarşı hörmət və sevgilərini artıran, özlərinə bu əxlaqı nümunə götürmələrini təmin edən, uca Allahın izni ilə imanlarına müsbət təsir edən vasitədir. İndi çətinlik anlarının möminlərin imanlarını necə dərinləşdirdiyini araşdıraq. Çətinlik anları kamil imana sahib olan möminlərin **"Biz, Allaha məxsusuq və Ona da qayıdacağıq! (Bəqərə surəsi, 156)"** cavabını verdikləri uca Allaha olan sevgilərinin gücünü və dərin imanlarını göstərmələrinə səbəb olan, ruhlarının təmizlənib şəfa tapdığı zamanlardır.

## İman gətirməyənlərin çətin anlardakı rəftarları

**"İtaət etsinlər və xoş söz söyləsinlər. Qəti əmr verildiyi zaman Allaha sadiq qalsaydılar, əlbəttə ki, onlar üçün daha yaxşı olardı. (Məhəmməd surəsi, 21)"** ayəsində də bildirildiyi kimi, gözəl əxlaqın qətiyyət tələb etdiyi zamanlarda göstərilməsi əhəmiyyətlidir. Çünki insanların böyük əksəriyyəti çətin anlarda göstərilən sədaqətin üstün əxlaq olduğunu bilir və söhbətlərində belə bir vəziyyətlə qarşılaşdıqda sadiq və güclü olacaqlarına dair söz verirlər. Ancaq çətinlik anı gəldikdə bəzi insanların rəftarları vədlərinə uyğun gəlmir. Özlərinə kiçik bir çətinlik toxunduğu zaman pis rəftar göstərir, birdən xasiyyətləri dəyişir, sevgi və şəfqət kimi duyğulardan uzaqlaşıb kin və hirslə hərəkət edirlər. Bir anda təvəkkülsüz, üsyankar, zalım olurlar. Bu səbəblə, çətinlik zamanı güclü olanlarla gücsüz olanların bir-birlərindən ayrıldığı, pis əxlaqın ortaya çıxdığı, imanı zəif olanların isə narahatlığa qapılıb özlərini büruzə verdikləri dövrdür. Belə nümunələr səmimi və güclü imana sahib müsəlmanların dəyərini qat-qat artırır.

## Çətinliklər möminin imanını necə dərinləşdirir?

### * Gözəl əxlaq qazandırır

Çətinliklərin gətirdiyi ən əhəmiyyətli qazanclardan biri də əxlaqi yetkinlikdir. Möminlər Quran əxlaqının dünyada hakim olması fikrinə səmimi olaraq inanır, bu səbəblə də, bu üstün əxlaqın yayılması üçün apardıqları fikri mübarizədə hər cür çətinliyi nəzərə alaraq çalışırlar. Dünyadakı məqsədlərindən biri bütün insanların İslam əxlaqının gətirdiyi rifah və qardaşlıq mühiti içində yaşamasıdır. Bu səbəblə, Quran əxlaqının yayılması üçün apardıqları fikri mübarizədə göstərdikləri qətiyyət və səbirlə çətinliklərdən qaçmayaraq bunlara sinə gərərlər. Bu vəziyyət əxlaqi yetkinliyə çatmalarına, incə düşüncəli olmalarına, nemətlərin qiymətini daha yaxşı bilmələrinə, bu nemətləri verdiyi üçün Rəbbimizə daim şükür etmələrinə, daha təvazökar, mülayim, həlim və qədir-qiymət bilən olmalarına, nemətə qovuşduqları zamanlarda təkəbbürlənməmələrinə və qənaətkar olmalarına səbəb olar.

### * Səbir və təvəkkül qazandırır

Bir möminin vacib xüsusiyyətlərindən biri, hər işini uca Allahın razılığını qazanmaq üçün etməsi, yəni ixlas sahibi olmasıdır. İxlas sahibi olan bir mömin hər hərəkətinin hesabını axirətdə verəcəyini bilərək, Rəbbimizi ən çox razı edən rəftarı göstərər. Bu səbəbdən, daim səbirli və təvəkküllüdür. Səbir və təvəkkülünün sirri isə **"Biz, həqiqətən də, hər şeyi qədərlə yaratdıq (Qəmər surəsi, 49)"** ayəsində də bildirildiyi kimi, hər hadisəni uca Allahın qədərlə yaratdığını bilməsidir. Bu səbəbdən, çətinliklər saleh möminin səbrini və təvəkkülünü gücləndirir, bu xüsusiyyətlərinin dərəcə-dərəcə artmasına səbəb olur.

Heç kim bir an sonra nə olacağını bilməz. Bunun elmi yalnız Rəbbimizə aiddir.

Ancaq uca Allah Quranda bir çox ayəsi ilə hər işlərində Allaha yönələn möminlərin sonunun xeyir olacağını bildirir. Bu səbəblə, çətin zamanlarında sevinc və şövqlə səbir edən, təvəkküllü olan bir möminin səbir etdiyi hər saat, hər dəqiqə, hətta hər saniyə axirətdə sonsuz nemətlərlə təchiz edilmiş cənnətlə mükafatlanmasını təmin edə bilər. Soyuq, aclıq, xəstəliklər Rəbbimizin qatında müəyyən edilən, yalnız dünyaya aid çətinlik və sıxıntılardır. Uca Allah imtahan üçün verdiyi çətinliklərə səbir etməyin əvəzində inanan qullarını cənnətlə müjdələyir:

**Sizdə olan nemətlər tükənəcək, Allahın dərgahında olan nemətlər isə daim qalacaqdır. Səbirli olanlara etdikləri yaxşı əməllərə görə mükafatlarını verəcəyik. (Nəhl surəsi, 96)**

İnsan hər şeyin yolunda getdiyi, bolluq və bərəkətin içində yaşadığı, sağlam olduğu, ya da heç bir çatışmazlığın olmadığı vəziyyətdə gözəl əxlaq göstərə bilər. Amma vacib olan odur ki, insan zərərə məruz qaldıqda, ya da pis rəftarla, haqsız böhtanla, incidici sözlərlə, maddi itkilərlə qarşılaşdıqda da gözəl əxlaq göstərsin, pisliyə yaxşılıqla cavab versin. Bir insanın tox olarkən yeməyini, isti mühitdə olarkən paltarını verməsi də gözəl əxlaqdır. İkisi də Allah qatında qiymətli olduğu ümid edilən ibadətlərdir, lakin çətinlik anında göstərilən gözəl əxlaq insanın səmimiyyətini, ixlasını, imanının gücünü və üstün əxlaq sahibi olduğunu göstərməsi baxımından daha əhəmiyyətli və qiymətli ola bilər (ən doğrusunu Allah bilir). Möminin çətin şəraitdəki səbiri dözümdən fərqlənir. Çünki dözümdə iman gətirməyən insanların təvəkkülsüzlüyü, ümidsizliyi və şikayətləri var. Səbirdə isə imanın gətirdiyi sevinc, şövq və mənəvi dərinlik var.

## Peyğəmbərimiz də müxtəlif çətinliklərlə qarşılaşmışdır

Çətinliklə sınanmaq müsəlmanın həyatında əhəmiyyətli yer tutur. Peyğəmbərimiz (s.ə.v) həyatı boyu bir çox

böhtana məruz qalmış, öldürülməklə təhdid edilmiş, məkkəli müşriklərdən zülm görmüş, səhabələrlə birlikdə sahib olduğu hər şeyi qoyub Mədinəyə köç etmişdir. Hz. İbrahim oda atılmış, hz. Yusuf əvvəl bir quyuda, sonra da illərlə həbsxanada qalmış, hz. Musa fironun zülmünə məruz qalmış, hz. İsanı öldürmək üçün tələ qurulmuşdur. Ancaq Allah elçilərinə yönəldilən bütün bu tələləri pozmuş, bütün çətinlikləri saleh qulları üçün gözəlliklərə çevirmişdir. İman gətirməyənlər tərəfindən müsəlmanların əleyhinə onlara çətinlik vermək məqsədilə müxtəlif tələlər qurulacağı Quranda ətraflı şəkildə xəbər verilmişdir. Allah bir ayədə belə bildirir:

**Bir zaman kafirlər səni həbs etmək, öldürmək və ya (yurdundan) qovmaq üçün sənə qarşı hiylə qururdular. Onlar hiylə işlətdilər, Allah da tədbir tökdü. Allah tədbir tökənlərin ən yaxşısıdır! (Ənfal surəsi, 30)**

## Nəticə: hər çətinliklə bərabər bir asanlıq vardır

Uca Allah "Ənbiya" surəsinin 101-ci ayəsində "Öncədən ən gözəl aqibət yazılmış insanlar" kimi qiymətləndirdiyi möminlərə bir sınaq olaraq verilən çətinliklərlə bərabər asanlıqlar da yaratdığını bildirir. Müsəlmanların birlik içində hərəkət etmələri, hər şeyin bir sınaqdan ibarət olduğunu bilmələri, sonsuz axirət yurduna hazırlıq etdiklərinin şüurunda olmaları, əslində, çətinliklər qarşısında onlara verilmiş böyük asanlıqdır. Bununla yanaşı, uca Allah möminləri daha böyük gözəlliklə müjdələyir.

Peyğəmbərlərin və saleh möminlərin həyatlarında olduğu kimi, Rəbbimiz hər çətinlikdən sonra inananlara mütləq bir zəfər, müvəffəqiyyət və qalibiyyət vermişdir. Bir ayədə belə buyurulur:

**Allah müttəqilərə uğurlarına görə nicat verəcək. Onlara pislik toxunmayacaq və onlar kədərlənməyəcəklər. (Zumər surəsi, 61)**



# SOSİAL PROBLEMLƏR DİN ƏXLAQINA UYĞUN YAŞAMAQLA HƏLL OLUNAR

Bəzi insanlar dünyada mümkün olduğu qədər çox qazanc əldə etməyə, öz istək və həvəslərini həyata keçirməyə, qısa ömrü məsuliyyətsiz başa vurmağa çalışırlar. Əxlaqlarını gözəlləşdirmək üçün səy göstərmirlər. Çünki bunun özlərinə heç bir faydası olmadığını düşünürlər. Belə ki, xeyirxah, şəfqətli, mərhəmətli, anlayışlı, vicdanlı insanları öz yanlış düşüncə tərzlərinə görə, "sadəlövh insan" kimi dəyərləndirirlər. Onların həyat fəlsəfəsi güclü olanın zəifi əzməsi, heç kimin haqqına hörmət etmədən insanlara istədiyi kimi zülm etmək üzərində qurulmuşdur.

Bu cür cəmiyyətdə Allah rizası və ya Allah qorxusu kimi dəyərlər olmadığına görə, meydana gələn əxlaqi pozuntunun qarşısını alan heç bir sədd yoxdur. Adət-ənənələr, insanların və ya rəhbərlərin qoyduğu ictimai qayda-qanunlar müəyyən dərəcədə bunun qarşısını alsa da, bu qayda-qanunların insanlar tərəfindən qoyulması və kökündə Allah qorxusunun olmaması insanların vicdansız, mərhəmətsiz və insafsız davranmasına mane ola bilmir.

Rəbbimizin bildirdiyi hədləri ölçü götürmədikdə əxlaqi dəyərlər hər kəsə görə dəyişəcək. Birisinə görə çox böyük əxlaqsızlıq olan bir məsələ digərinə görə normal görünə bilər. Ona görə də din əxlaqının hakim olmadığı cəmiyyətdə əxlaqi dəyərlər insandan-insana, yaşdan-yaşa, bölgədən-bölgəyə, şəhərdən-şəhərə və ölkədən-ölkəyə dəyişir. Vahid dəyər ölçüsü olmadığına görə, tez-tez əxlaqi ölçülərdə mübahisələr, qarşıdurmalar baş verir. Hər yeni nəsil əvvəlkinə görə əxlaqi cəhətdən daha çox pozulmuş olur.

Ancaq ən əsası odur ki, dünya səviyyəsində baş verən əxlaqi pozuntu artır. İnsanlar çatışmayan Allah inanclarına görə, hər il daha da geriləyir, bir neçə il əvvəl cəmiyyətdə anormal qəbul edilən bir hərəkət və ya anlayış qısa müddət sonra adi qarşılanır. Lakin bununla dinsizliyin cəmiyyətə gətirdiyi pis əxlaq günbəgün daha da artır. Maraqlısı budur ki, əxlaqsızlıq müasirliyə bərabər tutularaq cəmiyyətə bu istiqamətdə təlqin verilir. "Müasir cəmiyyətin, XXI əsrin insanı azad, rahat olmalı və məhdudiyyət qoyulmamalıdır" kimi yanlış anlayış dinsiz ideoloqlar tərəfindən cəmiyyətə aşılanır. Əlbəttə, rahat yaşamaq bütün insanların təbii haqqıdır. Ancaq bu cür mühitdə din əxlaqı olmadan batil fəlsəfələrlə yaşamağın mümkün olduğunu irəli sürmək ağıldankənardır.

## *Sağlam cəmiyyətin təməli həqiqi sevgi və hörmət üzərində qurulur*

Dinsizliyin insanlar üzərindəki ən əsas mənəvi təsirlərindən biri bu insanların sevgini və hörməti bilməməsidir. Bu cür insanlardan ibarət cəmiyyətin də, əlbəttə, nə yaşlısı, nə gənci, nə kəndlisi, nə də şəhərlisi bir-birinə sevgi göstərib dəstək olmur. Bu cür mühitdə insan özünü daima tənha və sevgisiz hiss edir. Şəfqət, mərhəmət olmadığına görə, hər kəs özünü düşünür. İnsanların bir-birlərinə qarşı hiss etdiyi sevgi və hörmət əsla Quranda nəzərdə tutulan həqiqi sevgi və hörmət deyil. Bunun ən böyük səbəbi isə həyatdakı bütün dəyərlərin mənfəət xarakterli münasibətlər üzərində qurulmasıdır. Kimsə kimsəyə həqiqi mənada səmimi hörmət etmir. Məsələn, müdirinə hörmət etməsə, işdən qovulacağını bilən insanın, müəlliminə hörmət etməsə, sinifdə qalacağını düşünən şagirdin, həyat yoldaşını qəzəbləndirsə, maddi cəhətdən onu təmin etməyəcəyini bilən qadının hörmət anlayışlarının ancaq mənfəət gözləntisi üzərində qurulduğu aydındır.

Halbuki, kökündə din əxlaqı və bundan qaynaqlanan gözəl əxlaq olan həyat tərzində heç vaxt belə vəziyyət yaranmır. Allahı razı salmaq

üçün cəhd edən, ancaq Allahdan qorxan möminə hər kəs təbii olaraq hörmət edər, sevgi bəsləyər. Onun hörmət görmək üçün mal-mülk, xarici görünüş kimi amillərə ehtiyacı yoxdur. Sevgi və hörmət görməsi üçün ancaq mömin olması, yəni Allahdan qorxub-çəkinməsi və Onu razı etmək üçün yaşaması kifayətdir.

## Din əxlaqı insana və cəmiyyətə nələr qazandırır?

Din əxlaqı hər şeydən əvvəl Allah sevgisi qazandırdığına görə, bu, bütün insanlara çox müsbət və gözəl təsir edər. Hər kəs Allahın rizasını qazanmaq üçün gözəl əxlaqlı davranar, bir-birini Allah rizası üçün sevər, hörmət edər. Bütün cəmiyyətə şəfqət, mərhəmət, tolerantlıq hakim olar. İnsanlar Allahın əmrinə əsasən, xeyirli işlər görməkdə yarışar, bütün imkanlarını daha xeyirli fəaliyyət göstərməyə yönləndirərlər. Habelə, Allah qorxusu sayəsində hər kəs əxlaqsızlıqdan və pis işlərdən çəkinər. Əsrlər boyu qarşısı alına bilməyən hər cür pis şeylərə bir anda son qoyular. Din əxlaqının ab-havası hər yerə hakim olar. Əlbəttə, burada Quranda bildirilən həqiqi din əxlaqına uyğun yaşamaq nəzərdə tutulur.

Quran əxlaqına uyğun yaşadıqda uşaqlarını din əxlaqı ilə böyüdərək dövlətə və millətə xeyirli insanlar olması üçün səy göstərən, öz aralarında da sevgi və hörmətlə davranan, hərəkətləri və danışıqları ilə uşaqlarına nümunə olan ata-analar üzə çıxar. Nəticədə də ata-anaya itaət edən, hətta Allahın əmrinə uyğun olaraq onlara: "Of", - belə deməyən, doğru ilə yanlışı hələ kiçik yaşlarından etibarən ayırd edə bilən, vicdanını dinləyərək pis işlərdən çəkinən uşaqlar böyüyər. Lazım gələrsə, dövləti üçün canını təhlükəyə atar, dövlətinin, millətinin mənfəətini öz mənfəətindən üstün tutar. Milli-mənəvi dəyərlərini cidd-cəhdlə qoruyar.

Din əxlaqının hakim olduğu mühitdə tələbələr də dövlətə, millətə hörmət və sevgi bəsləyər. Nəinki onlara qarşı mübarizə aparar, əksinə, dəstək olub yardım edər. Dövrümüzdə olduğu kimi, polisə hücum etməz, dövləti qoruyan və müdafiə edən bu mühafizəçilərə çox hörmət edərlər. Bütün cəmiyyət dövlətə və polisə tam etibar edər və sahib çıxar. Tələbə etiraz aksiyaları, qardaşlar arasında dava-dalaş, sağ-sol qarşıdurmaları kimi problemlər aradan qalxar. Çünki heç kimin bir-birilə yola getmədiyi, mübarizəyə təşviq edən məsələ qalmaz. İnsanlar Allahın bildirdiyi gözəl əxlaq



anlayışını mənimsəyər, nəticədə, bir-birinin ziddinə getməz. Problemlərin həllində hər kəs özünü qarşısındakının yerinə qoyar, mərhəmət edər, anlayışla yanaşar. Beləliklə, hər problem qısa müddətdə xoşluqla həll olunar.

Bu cür mühitdə dövlət də rahat idarə olunar. Ölkədə təhlükəsizlik və asayiş bərqərar olar. Rəhbərlər də insanlara qarşı çox ədalətli, mərhəmətli olar, hər cür ədalətsizlik aradan qalxar. Ona görə, özləri də hörmət görərlər. Nəticədə, dövlətin təməli də çox güclü və sarsılmaz olar.

İnsanların rahat yaşaması ilə cəmiyyətdə hər sahəyə bərəkət gələr. Elmi fəaliyyətlər artar, yeni kəşflər edilər, texnologiya, mədəniyyət və rifah səviyyəsi çox yüksələr. Çünki insanların hiss etdiyi mənəvi təzyiq aradan qalxdıqda rahatlaşar, azad və rahat düşünmə qabiliyyətləri inkişaf edər. Gözəl əxlaqın yaşanması ilə insanların mallarına, gördükləri işlərə, ticarətə, kənd təsərrüfatına, sənayeyə bərəkət gələr. Hər sahə inkişaf edər.

İncəsənətdə də irəliləyişlər baş verər. Gündəlik sıxıntı və problemlərdən təxəyyülləri, düşüncə üfüqü daralmış insanlar din əxlaqının yaşanması ilə bu sıxıntılardan xilas olar. Beləcə, incəsənət qabiliyyətləri inkişaf edər, düşüncələri zənginləşər. Allahın ona Öz ruhundan üfürdüyünü və içində əbədi qalacağı, min bir növdə nemətlərlə dolu Cənnət vəd etdiyini dərk edən insan, təbii ki, incəsənət və estetikadan ən yüksək səviyyədə zövq alar. Ruhunda bunun zövqünü dərindən yaşayar. Habelə, ətrafındakı insanlara qarşı hiss etdiyi sevgi və hörmət də bu insanlara gözəlliklər bəxş etmə əzmini artırar, onu şövqləndirər. Ona görə, din əxlaqının həqiqi mənada yaşandığı və Qurana tamamilə əməl edildiyi mühitdə hər cür incəsənət sahəsi sürətlə inkişaf edər.

## Din əxlaqına uyğun yaşamasaq…

Din əxlaqına uyğun yaşamadıqda ata övlada, övlad ataya, qardaş qardaşa, işçi müdirə, müdir işçiyə düşmən olar. Bu cür anarxiya mühitində fabriklər, iş yerləri fəaliyyət göstərməz, zərər görər. Sosial anarxiya meydana gələr, kasıb təbəqələr varlılara hücum edər, varlılar kasıbları istismar edər. Cəmiyyətdə qarşıdurmalar, ziddiyyətlər, anarxiya baş verər. Bütün bunların kökündə isə insanların Allah qorxusunun olmaması durur. Allah qorxusu olmayan insanlar rahatlıqla haqsızlıq, ədalətsizlik edir, cinayət törədir, bənzərsiz zülm və qəddarlıq etməkdən çəkinmirlər.

Habelə, vicdan əzabı belə çəkmədən etdikləri vəhşilikdən peşman olmadıqlarını da dilə gətirirlər. Halbuki, bunun qarşılığında axirətdə əbədi cəhənnəm əzabı olduğuna inanan insan əsla belə davranmaz. Quran əxlaqına uyğun yaşadıqda sadaladığımız hadisələrin heç biri baş verməz. Hər şey xoşluqla, ədalətlə, sakitliklə həll edilər.

Din əxlaqına uyğun yaşamayan insanların ruhlarını zənginləşdirmək, gözəlləşdirmək kimi məqsədləri olmaz. Ətrafdakılara gözəl davranmaq üçün əsla şövqlənməzlər. Çünki ətrafdakı insanları meymundan törəyən və ölərək yox olub gedəcək varlıqlar kimi dəyərləndirirlər. Onların yeganə məqsədi nəfsani istəklərini, heyvani instinktlərini həyata keçirməkdir. Bu istəklərinin ardınca getmək isə insan ruhunu gözəlləşdirməz, əksinə, boğar. Bu cür insanların sənətə heç bir töhfəsi olmadığı kimi, gözəl sənətdən də zövq almazlar. İncəsənətdən zövq almayan, estetika anlayışı olmayan insanlardan ibarət cəmiyyətdə sənətkarlar da şövqlərini və əzmlərini itirərlər. Ancaq pul və mənfəət qarşılığında etdikləri üçün həqiqi sənət əsərləri

ortaya çıxarmazlar.

Ailə dövlətin ən əsas fərdidir. Güclü ailə quruluşu olan millətin dövlət quruluşu da güclü olar. Ailə quruluşu çökmüş, mənəvi dəyərlərini itirmiş, üzvləri arasında sevgi, hörmət, birlik və bərabərlik, sədaqət duyğuları kütləşmiş dövlətin güclü olması mümkün deyil. Xüsusilə cəmiyyəti dinsizləşdirməyi hədəf seçən dövlətlərdə bu mənəvi çöküntü daha da sürətlənir və əxlaqi degenerasiya cəmiyyətin hər pilləsində özünü göstərir. Əsasən də milli və mənəvi dəyərləri qorumaq lazım gəldikdə Allah qorxusu olmayan insanlar mütləq laqeyd davranacaqlar. Bu davranış vətənə və millətə xidmət etməkdən, vətən və millət uğrunda mübarizədən çəkinməyə, hətta bölücü fəaliyyətlərə qədər böyüyə bilər.

## Nəticə

Beləliklə, səmimi şəkildə Quranda tərif edildiyi kimi, din əxlaqına uyğun yaşadıqda dünya bir növ cənnətə çevrilər. İnsanların əsrlərlə həsrətində olduğu, əldə etməyə çalışdıqları, ancaq çox uzaq gördükləri ictimai səadətə qovuşmamaq üçün heç bir səbəb qalmaz. Aşağıdakı ayədə Allahın insanlara bildirdiyi əxlaqi ölçülər çox açıq bildirilmişdir:

**Həqiqətən, Allah ədalətli olmağı, yaxşılıq etməyi və qohumlara verməyi əmr edir, iyrənc işlər görməyi, pis əməllər törətməyi və azğınlıq etməyi isə qadağan edir. O, sizə öyüd-nəsihət verir ki, bəlkə düşünüb ibrət alasınız. (Nəhl surəsi, 90)**

Quranın bu və buna bənzər ayələrindəki hökmləri bilən müsəlmanlar bu hədləri aşmazlar. Ona görə, inanan insanlardan təşkil olunmuş cəmiyyətdə əxlaqsızlıqların baş verməsinə də imkan olmaz.

Əlbəttə, insan səhv etməyə uyğun yaradılmışdır və müstəsna hal kimi insanlardan qaynaqlanan mənfi hadisələr ola bilər. Ancaq hər cür səhv davranışın Quranın hökmləri ilə və müsəlmanların şəfqətli yanaşması ilə öhdəsindən gəlmək asandır. Müsəlmanlar cahil cəmiyyətdə olduğu kimi, əxlaqsızlığı təşviq etməz, yaymaz və buna qarşı laqeyd qalmazlar. Çünki əsl müsəlmanların ən əsas xüsusiyyətlərindən biri Quranda tez-tez vurğulandığı kimi, bir-birlərinə yaxşılığı əmr edib pislikdən çəkindirmələridir:

**Mömin kişilərlə mömin qadınlar bir-birinin dostlarıdır. Onlar yaxşı işlər görməyi əmr edir, pis işlərdən çəkindirir, namaz qılır, zəkat verir, Allaha və Onun Elçisinə itaət edirlər. Allah onlara rəhm edəcəkdir. Həqiqətən, Allah Qüdrətlidir, Müdrikdir. (Tövbə surəsi, 71)**

Allah Quranda din əxlaqına uyğun yaşayan insanlardan ibarət cəmiyyətin xüsusiyyətlərini belə bildirir:

**Siz insanlar üçün ortaya çıxarılmış ən yaxşı ümmətsiniz, yaxşı işlər görməyi əmr edir, pis əməllərdən çəkindirir və Allaha iman gətirirsiniz... (Ali-İmran surəsi, 110)**

Şübhəsiz ki, belə bir cəmiyyətin əxlaqi cəhətdən din əxlaqına görə yaşamayan cəmiyyətdən nə qədər üstün olduğu aydındır.



# Allah hər cür yalanı haram etmişdir

Yalan danışmaq uca Allahın Quranda qadağan etdiyi davranışdır. Allahın hər şeyi bildiyinə və gördüyünə, hesab günündə bütün etdiklərinin ortaya çıxacağına inanan bir insanın belə bir rəftar göstərməsi, Allahın iznilə, mümkün deyil.

Yalanın müxtəlif növləri var. İnsanlar çox vaxt ancaq açıq şəkildə və birbaşa deyilən yalanı nəzərə alırlar. Məsələn, hər hansı bir mövzuda onlardan: "Bunu sən etdin?" - deyə soruşanda: "Xeyr, mən etmədim", - deməyin yalan olduğunu hamı bilir. "Mən yalan danışmaram", - deyəndə də bu cür dürüstlük anlayışından bəhs edirlər. Bundan başqa, yalan növlərini isə daha günahsız və əhəmiyyətsiz hesab edirlər. Bu səbəblə də yalan adlandırmadıqları yalanları söyləməkdən çəkinmirlər. Halbuki, səmimiyyətsiz edilən rəftarın günahsız tərəfi yoxdur. Bir insan həqiqəti inkar etmək məqsədilə hansı üsuldan istifadə edirsə, bu, yalandır.



## Yalan nəfsin çətinlik çəkdiyi anlarda ortaya çıxır

Ağlı başında olan bir insan yalan danışmağın pis xüsusiyyət olduğunu bilir. Ancaq nəfsi çətinlik çəkəndə və ya özünü təmizə çıxarması lazım olduqda dərhal yalanın "günahsız növlərinə" əl atır. Məsələn, qürur, eqoistlik kimi nəfsə uyğun pisliklər insanı özünü müdafiə, qüruru xilas etmə, alçalmama, nəfsi təmizə çıxarma kimi məqsədlə yalana apara bilər. Bu səbəblə, insan özünü qiymətləndirərkən, nəfsinə qarşı çox dürüst və səmimi olmalı, səmimiyyətsiz rəftarlarını heç bir örtüklə örtüb günahsız göstərməyə çalışmamalıdır.

Nəfsin çətinlik çəkdiyi anlarda insan nəfsindəki pis xüsusiyyətlərə qarşı çıxan ağıla, imana və vicdana sahib olmalıdır. Əks halda, insan nəfsindəki pisliklərə qarşı iradə göstərə bilməz. Nəfsini qorumaq üçün hər cür yalan, səmimiyyətsizlik və saxtakarlığa əl ata bilər. Ancaq imanlı bir insan yalanın hər növünə etiraz edər. Güclü Allah qorxusuna sahib səmimi mömin Allahın axirətdə verə biləcəyi qarşılığı düşünərək eqoistliyini məğlub edər. Maddi-mənəvi cəhətdən nə qədər zərərə uğrasa da, həmişə dürüst olar.

**Yalanı ancaq Allahın ayələrinə inanmayanlar uydururlar. Məhz onlardır yalançılar. (Nəhl surəsi, 105)**

Səmimi mömin Allaha iman gətirməyən, Allahdan qorxmayan və axirətə inanmayan insanların rahatlıqla göstərdiyi rəftarın eynisini göstərməkdən Allaha sığınar.

## Yalançılıq şeytanın xüsusiyyətidir

Yalan danışmaq, yəni yanıldıcı məlumat vermək şeytanın əsas xüsusiyyətlərindəndir. Şeytan bu xüsusiyyəti ilə insanları aldadıb doğru yoldan azdırır. Öz tərəfdarlarını, təsiri altına aldığı insanları da belə davranmağa sövq edir. Quranda şeytanın yalançı xarakterinin bildirildiyi ayələrdən biri bu şəkildədir:

**İş bitdikdə şeytan deyəcək: “Həqiqətən də, Allah sizə gerçək vəd vermişdi. Mən də sizə vəd vermişdim, lakin sizə yalan danışdım…” (İbrahim surəsi, 22)**

## Üstüörtülü yalan ard-arda başqa yalanlara qapı açır

Yalanı çirkin gördüyünü söyləyən və yalan danışanları şiddətlə qınayan, ancaq üstüörtülü yalan deməyə vərdiş etmiş bəzi insanlar var. Bu cür yalanların ən əhəmiyyətli xüsusiyyəti isə isbat edilməsi çox çətin olmasıdır. Bu cür yalanlarda bəlkə də açıq şəkildə var olan bir şey inkar edilmir, ya da heç olmayan bir mövzu uydurulub xəyali bir söz söylənmir. Amma var olan bir mövzu səmimiyyətsiz üsullarla dəyişdirilir. Quranda bu şəkildə həqiqəti təhrif edərək yalan danışanların əxlaqı belə bildirilmişdir:

**Şeytanların kimə nazil olduqlarını sizə xəbər verimmi? Onlar hər bir yalançıya və günahkara nazil olarlar. (Şüəra surəsi, 221-222)**

Uca Allah Quranda belə şəxslərin şeytanın təsiri altında hərəkət etdiklərini bildirmişdir. Bu insanlardan soruşduqda yalan söyləmədiklərini iddia edərlər. Halbuki, etdiklərinin açıq şəkildə deyilən yalandan heç bir fərqi yoxdur. Birində həqiqət açıq şəkildə inkar edilir, digərində müxtəlif bəhanələr uydurularaq inkar edilir. Məsələn, bir insan söylədiyi sözü

geri götürmək istədikdə açıq şəkildə: “Mən yanlış söylədim”, - demək əvəzinə: “Mən o sözümlə başqa şey nəzərdə tutmuşdum”, - deyərək həqiqəti təhrif etməyə çalışır. Bu, səmimiyyətsiz üslubdur. Belə üslubun yalanın bir növü olduğu deyildikdə həmin insan bu samimiyyətsizliyini başqa bir səmimiyyətsizliklə örtməyə çalışır. Bu şəkildə, yalan danışmadığını isbat etməyə çalışarkən ard-arda bir çox yalan danışır. Səmimiyyətsizlik özü ilə bərabər mütləq qarışıqlıq gətirdiyi üçün yalan üzərində qurulmuş bu səy nəticəsində işin içindən heç cür çıxa bilmir. Bir dəqiqə əvvəl söylədiyi bir sözü bir dəqiqə sonra xatırlamır. Yeni bir məntiq ortaya qoyur. Dürüst olmadığı üçün bu yeni məntiq də əvvəlki ilə ziddiyyət təşkil edir. Bu ziddiyyətləri məqbul hala gətirmək üçün yeni yalan söyləmək məcburiyyətində qalır. Bu qarışıqlıq içərisində öz söylədiyi sözləri tamamilə unudur. Özünə deyiləndə yenə özünü müdafiə etmək üçün içindən çıxa bilmədiyi məntiqləri tamamilə inkar edir. Nəticədə, “mən elə demək istəmədim” və ya “mən onu o məqsədlə deyil, bu məqsədlə etdim” kimi günahsız zənn etdiyi səmimiyyətsiz üsullarla həqiqəti təhrif edir. Bu da zəncirvari şəkildə bir çox yalanı özü ilə bərabər gətirər.

Halbuki, bir hadisəni gizlətmək, əksini söyləmək necə yalandırsa, belə səmimiyyətsiz üsullarla həqiqəti təhrif etməyə çalışmaq da eyni şəkildə açıq-aşkar yalandır. Allah hər şeyin ən doğrusunu, bir insanın bir söz söylərkən niyyətini, səmimiyyətini, bununla nəyi hədəflədiyinin hamısını biləndir.

Quranda bu həqiqət insanlara belə bildirilir:

**Onlar insanlardan gizlətsələr də, Allahdan gizlədə bilməzlər … (Nisa surəsi, 108)**

**Allah gözlərin xəyanətini və ürəklərin gizlətdiyini biləndir! (Mömin surəsi, 19)**

**“… Nəfsinizin istəyinə uyub haqdan üz çevirməyin! Əgər dilinizi əyib büzsəniz və ya (doğru şəhadət verməkdən, yaxud ümumən şahidlikdən) boyun qaçırsanız, (bilin ki) Allah etdiyiniz işlərdən xəbərdardır! (Nisa surəsi, 135)**

Peyğəmbərimiz (s.ə.v) insanlara doğru söz söyləməyi tövsiyə etmişdir

***“Siz doğruluğa davam edin, çünki düzgünlük sahibini xeyirə çatdırar. Yaxşılıqlar da cənnətə aparar. Yalandan çəkinin, şübhəsiz, yalan insanı fücura aparar, fücur isə atəşə, yəni cəhənnəmə aparar, qul yalana davam etdikcə və yalanı axtardıqca Allah qatında yalançı yazılar”.*** (Mehmed Zahid Kotku, Hadislerle Nasihatlar, Cilt 1, s.279; Buhari ve Müslim’den)

***“Əgər siz Allah və Rəsulunun sizi sevməsini istəyirsinizsə, sizə verilən əmanəti sahibinə verin. Söylədiyiniz vaxt doğru söyləyin, qonşularınızla gözəl qonşuluq edin”.*** (Mehmed Zahid Kotku, Hadislerle Nasihatlar, Cild 1, s.278; Taberani’den)





*Nəticə: yalan danışmaq xəstəliyindən xilas olmağın yolu səmimi imandır*

İnsanın söylədiyi sözləri unutduğu və daim ziddiyyətli danışıb bir yalandan başqasına keçdiyi qədər ağlını, yaddaşını bağlayan bir vicdan qarışıqlığı yaşaması Allahdan gərəyi kimi qorxub çəkinməməsindən qaynaqlanır. Şeytan özünə zərər gəlməsin deyə, insanı yalana təşviq edir. Halbuki, insan bununla dünyada da, axirətdə də özünü hörmətdən salır, hüsrana gətirib çıxaran səmimiyyətsizliyin içinə girmiş olur. İnsanların etibarını, razılığını, yaxınlığını qazanacağını ümid edərkən həm etibarsız bir insan halına gəlir, həm də uca Allahın razılığından uzaqlaşmış olur.

Bunun həlli, nə olursa olsun, dünyadakı ən böyük maddi və mənəvi zərərə uğrasa da, insanın dürüstlükdən, səmimiyyətdən vaz keçməməsidir. Uca Allahın razılığına uyğun olan əxlaq budur. Bir insan Allahdan qorxduğu üçün daim dürüst olsa, Allah dünyada da, axirətdə də həmin insanın dürüstlüyünü mütləq xeyirlə nəticələndirər. Dürüst olan insan heç vaxt zərər çəkməz. Çünki uca Allah dürüst və ədalətli olan qullarını sevəndir. Sonsuz rəhmət sahibi olan Allah dürüstlərin və səmimi möminlərin qarşılaşdığı gözəl nəticəni Quranda belə bildirmişdir:

**Allah dedi: "Bu, doğru danışanlara doğruluqlarının fayda verəcəyi gündür! Onlar üçün (ağacları) altından çaylar axan və içində əbədi qalacaqları cənnət bağları hazırlanmışdır". Allah onlardan razıdır, onlar da Ondan razıdırlar. Bu, böyük uğurdur. (Maidə surəsi, 119)**

Yalan danışmağın doğru davranış olmadığı barədə hamı həmfikirdir. Ancaq bu, yalnız sözdə qalır, çünki insanların əksəriyyəti bu çirkin davranışı çəkinmədən edirlər. Bunun səbəbi, yalanı məqbul hala gətirmək üçün "ağ yalan", "kiçik yalan" kimi örtüklərlə günahsız və qanuni bir davranış kimi göstərilməsidir. Halbuki, yalanın yaxşısı-pisi, böyüyü-kiçiyi olmaz. İnsan Allah qatında etdiklərindən məsul olduğunu unutmamalı və nə vəziyyətdə olursa olsun, mütləq doğrunu söyləməlidir. Quran əxlaqına uyğun olan doğru davranış budur.



# Özlərinə dərman istehsal edən canlılar

Dərman almaq istədikdə həkimlə məsləhətləşir və həkimin təklif etdiyi, təcrübə və araşdırmalar nəticəsində istehsal edilən dərmanları alırsınız. Çünki bunları özünüz istehsal edə bilməzsiniz. Halbuki, bir çox canlı Allahın rəhməti ilə ehtiyac duyduğu dərmanları öz bədənində istehsal edir.

## Öz aspirinlərini istehsal edən qoz ağacları

Quraqlıq, yüksək temperatur və buna bənzər şəraitlə qarşı-qarşıya qalan qoz ağacları aspirinə bənzər kimyəvi dərman ifraz edirlər. Qızdırma və ya infeksiyaya qarşı aspirin qəbul edən insanlardan fərqli olaraq, bitkilər çətin hava şəraitinə qarşı mübarizə aparmaq üçün biyokimyəvi müdafiə mexanizmlərini gücləndirən kimyəvi maddələri (metil salisilat və s.) qaz halında istehsal edirlər. Bunlar qozun müdafiə mexanizmini gücləndirən zülalların istehsal edilməsini sürətləndirir.

Qoz ağacı kimi bir çox bitki də uca Allahın onlar üçün yaratdığı xüsusi sistem vasitəsilə çətin hava şəraitinə müqavimət göstərirlər. Bu, Rəbbimizin hər canlı növünü onun ehtiyacına uyğun yaratdığının ən gözəl dəlillərindən biridir. Bundan əlavə, aspirinin əsas maddəsi olan metil salisilat günəş kremlərində, revmatizmin müalicəsində ağrıkəsici və antiseptik kimi istifadə edilərək insanlara fayda verir. Şübhəsiz, bu maddə uca Allahın Şafi (şəfa verən) isminin təcəllilərindəndir.

## Mədə dərmanlarını özləri istehsal edən timsahlar

Çox miqdarda yemək həzm prosesini çətinləşdirir. Bu, tez-tez rast gəldiyimiz mədə



Həzm dərmanı kimi istifadə edilən bəzi mədə həblərinin tərkibində karbonun olduğunu nəzərə alsaq, timsahın karbondioksidi qarnına göndərərək həzm üçün lazım olan mədə turşusu və bikarbonat istehsalını sürətləndirməsi prosesində üstün ağıl sahibi olan Rəbbimizin yaratma sənətini görə bilərik. Uca Allah üstün ağlını və yaratma sənətindəki qüsursuzluğunu bir Quran ayəsində belə xəbər vermişdir:

**O, Xaliq, yoxdan Yaradan, Surətverən Allahdır. Ən gözəl adlar yalnız Ona məxsusdur. Göylərdə və yerdə olanların hamısı Onun şəninə təriflər deyir. O, Qüdrətlidir, Müdrikdir. (Həşr surəsi, 24)**

narahatlıqlarından biridir. Bu narahatlıq hissindən xilas olmaq üçün dərmanlara və müxtəlif üsullara müraciət edilir. Halbuki, öz bədən ağırlığının təxminən 23%-i qədər yemək yeyən timsahlar heç vaxt mədələrində narahatlıq hiss etmirlər. Çünki mədə dərmanlarını özləri istehsal edirlər. Üstəlik, bunu müasir dövrdə istehsal edilən bəzi mədə dərmanları ilə eyni xammaldan istifadə edərək edirlər. Bu dərmanı qanlarının axma istiqamətini dəyişdirərək əldə edirlər.

İnsan, məməli və quş damarlarının timsahlarda olduğu kimi, xüsusi axma sistemi yoxdur. Sol aorta damarı timsahlardan başqa bütün canlılarda karbondioksidi daşıyan çirkli qanın ürəyin sağ tərəfindən nasosla vurularaq ağciyərlərə çatmasını və buradan karbondioksid alaraq ağciyərlərdən kənara atılmasını təmin edir.

Timsahlar isə onlara uca Allahın bəxş etdiyi xüsusi nemət olaraq sol aorta damarından istədikləri kimi istifadə edirlər. Yeməkləri həzm edərkən qanın normal axma istiqamətini dəyişdirərək karbondioksidlə zəngin olan qanı mədələrinə göndərirlər. Çünki ifrazat vəzlərinin həzm üçün mədə turşusuna, bikarbonat ifraz etmək üçün karbondioksidə ehtiyacı var.

## Antibiotik istehsal edən arılar

Zərərli bakteriya ilə birlikdə yaşayan çöl arısı istehsal edilən 9 cür antibiotikdən istifadə edərək sürfələrini infeksiyalardan qoruyur.

Çöl arılarının dişiləri yuvalarını torpağın içində qazır və burada yumurta qoyur. Çıxan sürfələri yedirtmək üçün bir bal arısını tutub, iflic edərək yumurtaların önünə qoyurlar. Ancaq torpağın altı canlılar və xüsusilə yumurta və sürfələr üçün etibarlı yer deyil. Torpaq isti, nəm və orqanik maddə baxımından zəngin olduğundan kif və bakteriyaların təsirinə məruz qalır. Arıların vəzifəsi sürfələri bu zərərdən qorumaqdan ibarətdir.

Dişi arılar balalarını qorumaq üçün öz antenalarında saxladıqları streptomiset bakteriyaları yuvanın tavanından asırlar. İsti yuva əldə edən bakteriya doqquz antibiotik maddədən ibarət olan ifrazat istehsal etməyə başlayır. Bu ifrazat bir çox zərərli bakteriya və göbələyə təsir edir. Yumurtadan çıxan sürfələr də tavandakı bu əcza şkafını açaraq bakteriyaları baramalarına sürtürlər.

Bu nümunələr üzərində dərin düşünmək canlıların davranışlarının təsadüfən ortaya çıxmadığını anlamaq üçün kifayət edir. Çünki arının öz antenasında saxladığı bir bakteriyanın antibiotik ifraz edəcəyini bilməsi, bu antibiotikin balaların qorunması üçün lazımlı olduğunu düşünməsi, balaların isə tavandan asılan

bakteriyaların ifrazatının onları qoruyacağını bilməsi, əlbəttə, qeyri-mümkündür. Bütün canlılar ehtiyacları olan bilgilərə Allahın ilham etməsi və öyrətməsi sayəsində qovuşurlar. Heç bir canlı başıboş, sahibsiz deyil və təsadüflərin axışına buraxılmamışdır. Bir Quran ayəsində belə xəbər verilir:

**Mən, Rəbbim və Rəbbiniz olan Allaha təvəkkül etdim. Elə bir canlı yoxdur ki, (Allah) onun kəkilindən tutmuş olmasın. Həqiqətən, Rəbbim ədalətlidir. (Hud surəsi, 56)**

## Həkim qarışqalar

Elm adamları qarışqaların çox təsirli mikrob təmizləmə üsulundan istifadə etdiyini aşkar etmişlər. İsveçli tədqiqatçılar müəyyən etmişlər ki, tüklü meşə qarışqaları (formica paralugubris) yuvalarına qatran yığırlar. Ancaq qarışqaların seçdiyi qatran bizim bildiyimiz qatranlara bənzəmir. Çünki onun malik olduğu xüsusi kimyəvi maddələr xəstəlikləri qarışqa yuvalarından uzaq tutur.

Qarışqalar yuvalarını əhatə edən qozalı ağaclardan bərkimiş şirə dənəciklərini yığırlar. Yığılan qatranın miqdarı 20 kiloqrama çatır.

Lozanna Universitetinin professoru Michel Chapuisat və tədqiqat qrupu qatranın antiseptik xüsusiyyətini test etmiş, qatran olan və olmayan yuvalarda müşahidələr aparmışlar. Qatransız yuvada üç qat daha çox göbələk törəməsi və xəstəliyə səbəb olan bakteriyaların artması təsbit edilmişdir.

Bildiyimiz kimi, qarışqaların bədəni çox kiçikdir və onlar sadə bir orqanizmə sahibdirlər. Xəstəlik, mikrob və antibiotik arasındakı əlaqəni təhlil etmək isə olduqca kompleks davranışdır. Əlbəttə ki, qarışqalar xəstəlik yaradan bakteriya və ya mikroblardan xəbərdar ola bilməzlər. Elm adamları xüsusi mikroskoblar sayəsində bunları araşdıra bilirlər.

Qarışqaların qatranın xəstəliyin qarşısını alacağını bilmələri heyrətamizdir. Onların ətrafında çox sayda bitki olmasına baxmayaraq, məhz qozalı ağaclarını seçmələri şüurlu hərəkətdir. Qarışqalar sanki hansı xəstəliyə qarşı hansı dərmanı verəcəklərini bilirmiş kimi davranırlar. Ayrıca, qarışqaların qatran toplayarkən birlikdə çalışması yuvanın ümumi sağlamlığını düşündüklərini də ortaya qoyur. Bu ağıllı davranışlar Allahın qarışqalara ilhamı ilə reallaşır. Xəstəlikləri yuvalarından uzaq tutmaq üçün qatran yığan hər bir qarışqa uca Allahın nəzarəti altındadır.

## Qanlarındakı antitellərlə xəstəliklərin qarşısını alan köpək balıqları

Avstraliyalı elm adamları köpək balıqlarının qanında olan antitellərin xərçəng xəstəliyi ilə mübarizədə əhəmiyyətli rol oynayacağını açıqlayıb. Tədqiqatçılar müəyyən edib ki, köpək balıqlarının qanında xəstəliklərlə mübarizə aparan fərqli antitellər var və bunlar xərçəng hüceyrələrinin çoxalmasına mane olur. Köpək balıqlarının güclü immun sisteminə sahib olmalarının və nadir halda infeksiyaya yoluxmalarının səbəbi də bu antitellərdir.

Bu canlıların xüsusi kimyəvi əməliyyatlar apararaq xəstəliklərə qarşı tədbir görməsi Allahın yaratdığı gözəlliklərdən biridir. Bildiyimiz və bilmədiyimiz canlıların sahib olduqları xüsusiyyətlər Allahın sərhədsiz gücünü daha yaxşı qavramaq üçün bir vasitədir. Allah bir ayədə belə buyurur:

**Yer üzündə olanların hamısını sizə görə xəlq edən Odur… (Bəqərə surəsi, 29)**





# Bədənimizdəki elektrik sistemi

Bədəniniz hər gün müntəzəm qulluq tələb edən elektriklə işləyən texnoloji cihaz kimidir. Bir əzələniz hərəkət etdikdə elektrik yük boşalması əmələ gəlir. Beyinin əmrlərini daşıyan siqnallar elektrikdir. Bundan əlavə, orqanizmdən beyinə doğru hərəkət edən bütün duyğu siqnalları elektrikdir. Hüceyrənin bölünməsi, ürəyin döyünməsi də elektrikdir. Əslində, bütün kimyəvi reaksiyalar elektrikdir, çünki molekulyar səviyyədə elektronlar ötürülür, paylanır və ya dəyişikliyə məruz qalır. İnsan orqanizmində elektrik olmayan heç nə yoxdur. Siz dincəlmək üçün uzandıqda belə enerji hasilatı ilə əlaqədar çətin proseslər sizin iradənizdən asılı olmayaraq baş verir: ürəyiniz döyünür, ağciyərlərinizə oksigen gedir və s.

Bir sözlə, insan orqanizmi həyatda qalmaq üçün elektro-kimyəvi enerji sistemindən istifadə edir. Bədənimizin elektriklə işləyən hissəsini sinir sistemi təşkil edir. Bir qəza və ya şikəstlik olmadıqca bədənimiz həm elektrik hasil edir, həm də hasil etdiyi elektrik enerjisi ilə gecə-gündüz fəaliyyət göstərir. Canlılardakı elektrik sistemi metallardakı elektrik sistemlərindən daha çox üstünlüyə malikdir. Bu üstünlüklərdən biri bioloji sistemlərin öz-özlərini təmir etməsidir. Məsələn, barmağınız kəsildikdə qısa zaman ərzində bu yara sağalır.

# İslam asanlıq və saflaşma dinidir

### Xurafatçılar və müşriklər nə üçün dinin asan olmasını istəmirlər?

### Xurafatçıların hz. Mehdini (ə.s) dəstəkləməmələrinin səbəbi nədir?

Rəbbimizin şəfqət və mərhəmətinin nəticəsi olaraq əsrlər boyu göndərilmiş bütün haqq dinlər həmişə asan tətbiq edilən hökmlərdən ibarət olmuşdur. Çünki Allah insanlar üçün daim asanlıq diləmiş və **"Allah sizin üçün çətinlik deyil, asanlıq istəyir..." (Bəqərə surəsi, 185)** ayəsi ilə də bu həqiqəti xəbər vermişdir.

Allahın hədlərinə riayət edən insan həm də yaradılışına uyğun olan gözəl həyatı yaşayan insandır. Ancaq tarix boyu din əxlaqını əslindən uzaqlaşdıran və üstün əxlaqın yaşanmasına mane olmaq üçün



müxtəlif üsullara əl atanlar dinə bir çox xurafatlar qatmağa çalışmışdır. Bunun nəticəsində də insanların qəsdən və ya bilməyərək din əxlaqından uzaqlaşmalarına səbəb olmuşlar. Yəhudilik məhz bu şəkildə təhrif edilmişdir. Çünki bəzi insanlar xurafatlarla və ya əlavələrlə yəhudiliyi yaşana bilməyəcək hala gətirmişdir. Hətta indi də yəhudiliyin xurafatlarla çətinləşdirilmiş hökmlərini yerinə yetirə bilən bir yəhudi yoxdur. Çünki insanlar yəhudiliyin hökmlərini o qədər çətinləşdirmişlər ki, heç bir insan ona riayət edə bilmir. Məhz hz. İsa (ə.s) insanların təhrif etdiyi yəhudiliyin hökmlərini Allahın əmrilə yüngülləşdirmək və rahatlaşdırmaq üçün gəlmişdir. Bu mənada xristianlıq hz. İsa (ə.s) vasitəsilə xürafatlardan təmizlənmək üçün göndərilmişdir. Ancaq yenə də bəzi ruhanilər xristianlığı təhrif etmişdir. Quranda belə xəbər verilir:

**Sonra onların ardınca dalbadal elçilərimizi yolladıq. Sonra Məryəm oğlu İsanı göndərib ona İncil bəxş etdik. Onun ardınca gedənlərin qəlblərinə şəfqət və mərhəmət saldıq. Rahibliyi isə onlar özlərindən icad etdilər. Biz bunu onlara vacib buyurmamışdıq. Onlar bunu Allahın razılığını qazanmaq üçün etdilər, lakin ona lazımınca riayət etmədilər. Biz onlardan iman gətirənlərin mükafatlarını verdik. Onların çoxu isə fasiqlərdir. (Hədid surəsi, 27)**

Halbuki, Allah bizə din əxlaqının yaşanmasının səmimi insanlar üçün çox asan olduğunu bildirir.

Onu da qeyd etmək lazımdır ki, Allah kainatdakı hər şey kimi insanı da yoxdan var etmişdir. İnsanı ən yaxşı tanıyan, ona şah damarından daha yaxın olan Allah dini də insanın yaradılışına uyğun yaratmışdır. Allah bir ayəsində insanın din ilə fitrətinə (yaradılışına) ən uyğun olana çağrıldığını belə xəbər verir:

**Sən bir hənif kimi üzünü dinə tərəf çevir! Allahın insanlara – xəlq etdiyi (şüurlu) məxluq kimi verdiyi fitrət budur. Allahın yaratdığını heç cür dəyişdirmək olmaz. Doğru din budur, lakin insanların çoxu (bunu) bilmir. (Rum surəsi, 30)**



Rəbbimiz Rəsulullah (s.ə.v) vasitəsilə İslam dinini göndərmiş, təhrif edilmiş xristianlıq və yəhudiliyin insanlar üzərində meydana gətirdiyi ağır təzyiqləri aradan qaldırmışdır. Ayədə bu həqiqət belə bildirilir:

**O kəslər ki, yanlarındakı Tövrat və İncildə haqqında yazılmış olduğunu gördükləri Elçinin – yazıb-oxumaq bilməyən Peyğəmbərin, ardınca gedərlər. O, onlara yaxşı işlər görməyi buyurar, pis əməlləri isə qadağan edər, onlara pak şeyləri halal, murdar şeyləri isə haram edər. Onların ağır yüklərini yüngülləşdirər və onları buxovlardan xilas edər. Ona iman gətirən, onu dəstəkləyən, ona kömək edən və onunla göndərilmiş nurun (Quranın) ardınca gedənlər isə nicat tapanlardır". (Əraf surəsi, 157)**

## Xurafatçılar tarix boyu xurafatların aradan qaldırılmasından çox narahat olmuşlar.

Fanatizm insanların ağlını bulandıran, din əxlaqını yaşamağa mane olan bir sistemdir. Tarix boyu xurafatçılığın insanlar üzərində yaratdığı təxribat dinsiz, ateist insanların təxribatlarından daha şiddətli olmuşdur. Çünki xurafatçılar Allahın əmr etdiyi din əxlaqına riayət etmədikləri üçün çox cahil olurlar. **"Onlar cahiliyyə (dövrünün) hökmünümü istəyirlər? Qəti inanan bir camaat üçün Allahdan daha yaxşı hökm verən kim ola bilər? (Maidə surəsi, 50)** ayəsində xəbər verildiyi kimi, cahil olanlara Allahın hökmlərini izah etmək çox çətindir. Onların təcavüzkar və vəhşi xüsusiyyətləri olur. Heç vaxt məqbul danışmır, dinin gerçək hökmlərini yaşamaq istəmirlər. Xurafatçıların bu xüsusiyyəti tarixən var olmuşdur. Belə ki, hz. İsaya (ə.s) bəzi yəhudi ravvinlərin şiddətli münasibətinin səbəbi hz. İsanın (ə.s) dini xurafatlardan təmizləməsi idi. Hətta öz aralarındakı söhbətlərində (hz. İsanı (ə.s) tənzih edirik) hz. İsanı (ə.s) dinlərini "öldürdüyünü" demişlər. Halbuki, Rəbbimiz Quranda hz. İsanın (ə.s) təhrif edilmiş Tövratı xurafatlardan təmizləmək üçün və haqq dini təsdiqləyici olaraq göndərdiyini belə bildirir:



**Onların ardınca Məryəm oğlu İsanı özündən əvvəlki Tövratı təsdiqləyici olaraq göndərdik. Ona içərisində hidayət və nur olan, özündən əvvəlki Tövratı təsdiqləyən, müttəqilər üçün doğru yol göstəricisi və öyüd-nəsihət olan İncili verdik. (Maidə surəsi, 46)**

Bu həqiqət bir başqa ayədə də belə bildirilir:

**İsa aydın dəlillərlə gəldiyi zaman dedi: "Mən sizə hikmət gətirmişəm və barəsində ziddiyyətə düşdüyünüz bəzi şeyləri izah etmək üçün (gəlmişəm). Allahdan qorxun və mənə itaət edin! (Zuxruf surəsi, 63)**

Rəsulullah (s.ə.v) da eyni şəkildə müşriklərin çətinləşdirdiyi dinin bütün hökmlərini aradan qaldırmışdır. Quranda bu mövzudakı nümunə belədir:

**Dəvədən də ikisini, inəkdən də ikisini. De: "O, iki erkəyi haram buyurdu, yoxsa iki dişini, yaxud iki dişinin qarnındakı (balaları)? Yoxsa Allah bunu sizə tövsiyə etdiyi zaman şahid idiniz?" Elmsiz olaraq insanları azdırmaq üçün Allaha qarşı yalan uyduran kimsədən daha zalım kim ola bilər? Şübhəsiz ki, Allah zalım camaatı doğru yola yönəltməz. (Ənam surəsi, 144)**

Ayədə bildirildiyi kimi, Quranda hökmlərin asanlaşdırılması müşriklərin və xurafatçıların xoşlarına gəlmir. Çünki Allah namaz, dəstəmaz kimi bütün ibadətləri asanlaşdırdığı kimi, dini gündəlik həyata keçirəcək qədər asanlaşdırmış, xurafatçıların və müşriklərin qoyduğu haramları halala çevirmişdir. Xurafatçılar və müşriklər Peyğəmbərimizə (s.ə.v) dinin asan olmasına qarşı təzyiq etməyə başlamışlar. Peyğəmbərimiz (s.ə.v) onların qoyduğu ağır hökmlərin Quranda olmadığını söyləmiş, onlar isə "Sən özün bir hökm gətir, belə din olmaz, çox sadədir, hökmləri ağırlaşdır,



biz o dinə itaət edəcəyik, amma bu sadə hökmlərdə din görünüşü yoxdur" kimi sözlərlə Peyğəmbərimizə (s.ə.v) təzyiq etmişlər.

İman gətirənlər Allahın insanlara əmrlərini yerinə yetirməli və qadağalarından çəkinməlidirlər. Allah hər şeyi insanlar üçün asanlaşdırarkən dini çətinləşdirməyə çalışanlar axirətdə bunun məsuliyyətinə yüklənərək hesab verəcəklər.

Hər şeydə olduğu kimi, bu mövzuda da Peyğəmbərimizin (s.ə.v) həyatı və tətbiqləri bizə ən gözəl nümunədir. Bir hədisində Peyğəmbərimiz (s.ə.v) Allahın hədlərindən ayrılmamağı və eyni zamanda da, həddi aşmamağı möminlərə xatırlatmış və dinin asan olduğunu ifadə etmişdir:

*"Din asandir. Heç kim dinə qarşı sərt ola bilməz. Çünki dinə məğlub olar. Davranışınızı doğruldun, (hüduda) yaxın olun." (Ramuz el-hadis, 1. cild, səh. 98)*

İnsanların dinini Peyğəmbərimizin (s.ə.v) yuxarıdakı hədisində bildirdiyi kimi qiymətləndirmək lazımdır. Yəni Allahın aydın şəkildə bildirdiyi, asan tətbiq oluna bilən hökmlərini bəzi şəxslərin çətin göstərməyə çalışmaları böyük səhvdir. Belə ki, Allah Quranda bildirdiyi hökmləri hər şərait və mühitdə, hər insanın rahatlıqla tətbiq edə biləcəyi şəkildə asanlaşdırmışdır.

## Axırzamanda dini xurafatlardan təmizləyən insan hz. Mehdidir (ə.s)

Axırzamanda özlərini alim kimi xarakterizə edən bəzi şəxslər İslam adı ilə ortaya çıxacaq və dində olmayan ağır hökmləri dinə yerləşdirməyə çalışacaqlar. Hədislərdə bu həqiqət belə xəbər verilir:

*"ELM ALİMLƏRİN QALDIRILMASI (vəfat etmələri, Allahın qatına alınmaları) İLƏ ORTADAN QALXAR. ORTALIQDA HEÇ*

***BİR ALİM QALMAZ. NƏHAYƏT İNSANLAR CAHİLLƏRİ RƏHBƏR VƏ ÖNDƏR EDƏRLƏR, MƏSƏLƏLƏRİNİ ONLARDAN SORUŞARLAR. ONLAR ELMƏ ƏSASLANMADAN XALQA FƏTVA VERƏRLƏR. HƏM ÖZLƏRİ AZAR VƏ HƏM DƏ XALQI AZDIRARLAR". (Buhari, nr. 100, 7307; Müslim, İlim 13 (nr. 2673); Tırmizi, İlim 5 (nr. 2652); Nesai, es-Sünenü'l-Kübra, nr. 5907; İbn Mace, Mukaddime 8 (nr. 52); Ahmed, el-Müsned, 2/162, 190; Darimi, es-Sünen, Mukaddime 26; İbn Hibban, es-Sahih, nr. 4571, 6719, 6723).***

Hz. Mehdi (ə.s) də Peyğəmbərimiz (s.ə.v) kim xurafatçıların din üzərində meydana gətirdiyi xurafatları ortadan qaldıracaq, dini əslinə qaytaracaq və bidətlərdən təmizləyəcək, yəni dində təhfifat edəcək. Hədislərdə hz. Mehdinin (ə.s) əsas vəzifələrindən birinin bu olduğu, axırzamanın bu müqəddəs şəxsinin xurafatçı insanlarla çətin mübarizəsinin olacağı açıq şəkildə izah edilmişdir.

Muhyiddin Ərəbi "Fütuhat əl-Məkkiyyə" adlı əsərində belə bildirir:

***"Onun (hz. Mehdinin (ə.s)) açıq düşmənləri füqəha (fiqh alimləri) olacaq. Çünki xalq arasında bir imtiyazları qalmayacaq. Hətta ehkam barəsində elmləri də azalacaq. Bu imamın (hz. Mehdinin (ə.s)) gəlişi ilə alimlərin hökmlərdəki anlaşılmazlıqları da aradan qaldırılacaq ... ƏGƏR ƏLİNDƏ QILINC (ELM) OLMASAYDI, FƏQİHLƏR ONUN (HZ. MEHDİNİN (Ə.S.)) ÖLÜMÜNƏ FƏTVA VERƏRDİLƏR. Lakin cənabi-Haqq onu (hz. Mehdini (ə.s)) kərəmi ilə və qılınc (qardaşları ilə) ilə təthir edəcək (təmizləyəcək), ONLAR ONA (hz. Mehdiyə (ə.s)) İTAƏT EDƏCƏKLƏR. (Medineli Allâme Muhammed b. Resul el-Hüseynî el-Berzencî, Kıyamet Alametleri, səh. 187, Pamuk Yayıncılık)***

Başqa bir hədisdə isə hz. Mehdinin (ə.s) dinə sonradan qarışan bütün səhv inanc və tətbiqlərdən təmizləyərək İslam dinini Peyğəmbərimiz (s.ə.v) dövründə yaşandığı kimi əslinə çevirəcəyi, fanatik və mühafizəkar xurafatçılara qarşı dəyanətlə mübarizə aparacağı belə bildirilmişdir:

***Rəsulullah (s.ə.v) belə buyurur: "HƏR ZAMANDA ÜMMƏTİM ÜÇÜN ƏHLİ-BEYTİMDƏN BİR ƏDALƏTLİ VARDIR. ONLAR AZDIRANLARIN TƏHRİFLƏRİNİ, BATİL ƏHLİNİN BATİLİNİ, CAHİLLƏRİN ŞƏRHİNİ BU DİNDƏN UZAQLAŞDIRARLAR, bilin ki, doğrusu sizin imamlarınız sizi Allaha aparan elçilərdir, elə isə yaxşı baxın ki, sizin elçiləriniz kimlərdir". (Savaik'ul Muhrika, İbn-i Hacer, s. 148, Muhammediyye mat. ve s. 90, Meymeniye mat. Mısır. / Yenabi'ul Mevedde, Kunduzi Hanefi, s. 226, 326, 327, Haydariye mat. S. 191, 271, 273 ve 297, İstanbul. / Zehair'ül Ukba, Muhibbiddin Taberi Şafii, səh.17)***

***"İNSANLAR HAQQA DÖNƏNƏ QƏDƏR MÜBARİZƏSİNƏ DAVAM EDƏCƏK". (El-Kavlu'l Muhtasar Fi Alamet-il Mehdiyy-il Muntazar, səh. 23)***

***"PEYĞƏMBƏR (S.Ə.V) ƏVVƏLDƏ İSLAMA NECƏ DƏSTƏK OLDUSA, HZ. MEHDİ (Ə.S) DƏ SONDA EYNİ ŞƏKİLDƏ İSLAMA DƏSTƏK OLACAQ". (El-Kavlu'l Muhtasar Fi Alamet-il Mehdiyy-il Muntazar, səh. 27)***

Allah tarix boyu bütün insanlara doğrunu tapmaları, qəti məlumata yiyələnmələri və din haqqında məlumat əldə edə bilmələri üçün müqəddəs kitablarla bu kitabları insanlara çatdıran və açıqlayan peyğəmbərlər göndərmişdir. Allahın insanlara doğru yolu göstərən rəhbər olaraq endirdiyi son kitab isə Qurandır. Bir ayədə Quranın yol göstərici xüsusiyyəti belə bildirilir:

**Daha əvvəllər insanlara doğru yolu göstərən rəhbər olmaq üçün. Furqanı da O nazil etdi. Şübhəsiz ki, Allahın ayələrini inkar edənlər**



**üçün şiddətli bir əzab vardır. Allah Qüdrətlidir, intiqam almağa qadirdir. (Ali-İmran surəsi, 4)**

## Hz. Mehdi (ə.s) bütün məzhəbləri ortadan qaldıraraq dini əslinə çevirəcək

Hz. Mehdinin (ə.s) əhəmiyyətli xüsusiyyətləri arasında ən böyük mücəddid (hər əsrin əvvəlində dini həqiqətləri dövrün ehtiyacına görə dərs vermək üçün göndərilən böyük İslam alimi) və ən böyük müctəhid (ehtiyac yarandıqda ayələrdən hökm çıxaran böyük İslam alimi) xüsusiyyətləri də vardır. Bu xüsusiyyətdəki böyük şəxslər İslam cəmiyyətlərinə nümunə olmuş, yol göstərmiş öndərlərdir. Müsəlmanlar da onlara itaət etmişlər. Bütün sünnə əhli dörd məzhəb imamının verdiyi hökmlərə əməl etmişdir. Bu müctəhid və mücəddidlərin ən böyüyü isə hz. Mehdi (ə.s) olacaq. Bu da hz. Mehdinin (ə.s) ictihad edən (Quran və hədislərdən istifadə edərək hökm verən) səlahiyyətli şəxs olacağını, bütün məzhəbləri aradan qaldıracağını göstərir. Çünki ən böyük məzhəb imamı olduğuna görə digər məzhəbləri aradan qaldırmalıdır. Dövründə hər kəsin ona itaət edəcəyinin bildirilməsi də bunu təsdiqləyir. İslam tarixinin ən böyük alimlərindən biri olan Muhyiddin Ərəbi isə "Fütuhat əl-Məkkiyyə" adlı əsərində bu mövzuda belə məlumat vermişdir:

***"... MEHDİ (Ə.S) DİNİ PEYĞƏMBƏRİN (S.Ə.V) ZAMANINDA OLDUĞU KİMİ EYNİLƏ TƏTBİQ EDƏCƏK. YER ÜZÜNDƏN MƏZHƏBLƏRİ QALDIRACAQ. XALİS HƏQİQİ DİNDƏN BAŞQA HEÇ BİR MƏZHƏB QALMAYACAQ". (Muhammed B. Resul El Hüseyin El Berzenci, Kıyamet Alametleri, səh. 186-187)***

Allahın Qurandan əvvəl endirdiyi kitablar müşriklər və dinə düşmən olan insanlar tərəfindən təhrif edilmişdir. Bu kitablara bir çox xurafat və batil inanc əlavə olunaraq əslindən uzaqlaşdırılmışdır. Ancaq Allah son müqəddəs kitab olan Quranı qiyamət gününə qədər qoruyacağını belə bildirmişdir:

**Şübhəsiz ki, Zikri Biz nazil etdik, əlbəttə, Biz də onu qoruyacağıq. (Hicr surəsi, 9)**

**Nə önündən, nə də arxasından batil ona yol tapa bilməz. O, Müdrik, Tərifəlayiq (Allah) tərəfindən nazil edilmişdir. (Fussilət surəsi, 42)**



# Ramazan ayı, oruc, qardaşlıq və gözəl əxlaq haqqında Peyğəmbərimizdən (s.ə.v) müsəlmanlara öyüd-nəsihət

Bütün müsəlmanların Ramazan ayını təbrik edir, bu mübarək ayın bütün inananlara bərəkət, xeyir, rahatlıq və sülh gətirməsini arzu edirik.

Bu Ramazana dünyanın hər tərəfində çox sayda insan qarşıdurmaların, yoxsulluğun, aclığın və müxtəlif xəstəliklərin pəncəsində girir. Bu insanların ən böyük arzusu isə sülhün və sabitliyin təmin edildiyi bir mühitdə rahat yaşamaqdır.

Arzulanan sülh və rahatlığın yaradılması üçün isə bütün müsəlmanlar Quran əxlaqına riayət etməlidirlər. Çünki ancaq bu əxlaq yaşandıqda rahat mühit meydana gələcəkdir.

Ramazan ayı müsəlmanlar arasında yardımlaşmanın və həmrəyliyin ön plana çıxdığı bir dövrdür. Bu səbəbdən, bütün İslam aləmi Ramazan ayını səbəb kimi görüb fikir ayrılıqlarını, inciklikləri kənara qoymalı və bir bədən kimi ittifaq etməlidirlər. Müsəlmanların təsanüdü mövzusunda göstərilən həmrəylik zülmə səbəb olan bütün azğın ideologiyaların dağılmasına səbəb olacaq, eyni zamanda da çətin şəraitdə yaşayan və ehtiyac içində olan müsəlmanlara dəstək olacaq.

Unutmamaq lazımdır ki, hal-hazırda yaşanan fitnə və qarışıqlıq mühiti, çətinliklər hz. Mehdinin zühurunun və onun vasitəsilə yaşanacaq Qızıl əsrin müjdəsidir. Quran əxlaqının insanlara təqdim etdiyi gözəlliklər geniş şəkildə yaşandıqda bütün dünya xalqlarının həsrətlə axtardığı xoşbəxtlik, sülh və sevgi mühiti meydana gələcək. Bu, Allahın vədidir və reallaşması Allahın iznilə çox yaxındır.

Yuxarıda da vurğuladığımız kimi, həsrətlə gözlənən sülh və qardaşlıq mühitinin təmin edilməsi hər müsəlmanın Quran əxlaqını öz həyatına tətbiq etməsi ilə mümkün olacaq. Peyğəmbərimizin (s.ə.v) hədislərində də bildirildiyi kimi, insanın getdiyi ən gözəl yol Qurani-kərimin və Peyğəmbərimizin (s.ə.v) sünnələrinin göstərdiyi yoldur. Məhz buna görə də Peyğəmbərimizin (s.ə.v) müxtəlif mövzularda müsəlmanlara bəzi xatırlatmalarını sizin üçün topladıq. Ümid edirik ki, bu Ramazan ayı müsəlmanların birliyinin, şövqlərinin və imanlarının daha da artmasına səbəb olacaq.

## Din asanlıqdır

1. (Allahın rəsulu) "Din nəsihətdir/ səmimiyyətdir",- buyurdu. "Kimə, Ya Rəsulullah?" deyə soruşduq. O da: "Allaha, Kitabına, Peyğəmbərinə, müsəlmanların idarəçilərinə və bütün müsəlmanlara",- deyə cavab verdi. (Müslim, İman, 95)

2. Asanlaşdırın, çətinləşdirməyin, müjdələyin, nifrət etdirməyin. (Buxari, Elm, 12)

3. İslam gözəl əxlaqdır. (Kenzü'l-Ummal, 3/17, Hadis No: 5225)

## Gözəl əxlaq

4. Müsəlman insanların əlindən və dilindən əmin olan insandır. (Tirmizi, İman, 12)

5. İnsanlara mərhəmət etməyənə Allah mərhəmət etməz. (Müslim, Fedail, 66)

6. Şübhə yoxdur ki, düzgünlük yaxşılığa aparar. Yaxşılıq da cənnətə aparar. Adam doğru söyləyə-söyləyə Allah Qatında siddiq (doğru sözlü) deyə yazılar. Yalançılıq pisə aparar. Pislik də cəhənnəmə aparar. İnsan yalan danışa-danışa Allah qatında kezzab (çox yalançı) deyə yazılar. (Buxari, Ədəb, 69)

7. Harada olursan ol, Allaha qarşı çıxmaqdan çəkin. Etdiyin pisliyin arxasından bir yaxşılıq et ki, bu onu yox etsin. İnsanlara qarşı gözəl əxlaqın tələbinə görə davran. (Tirmizi, Birr, 55)

8. Allah sizdən birinizin etdiyi işi, əməli və vəzifəni möhkəm və yaxşı etməyinizdən məmnun olar. (Taberani, əl-Mu'cemü'l-Evsat, 1/275)

9. Xeyirə səbəb olan, xeyiri edən kimidir. (Tirmizi, Elm, 14)

10. Heç bir ata uşağına gözəl tərbiyədən üstün hədiyyə verə bilməz. (Tirmizi Birr, 33)

11. Allaha və axirət gününə iman gətirən şəxs qonşusuna əziyyət verməsin. Allaha və axirət gününə iman gətirən qonağına yemək hədiyyə versin. Allaha və axirət gününə iman gətirən şəxs ya xeyir söyləsin, ya sussun. (Buxari, Ədəb, 31, 85)

## Ramazan ayı və Qədr gecəsi

12. Mən və məndən əvvəlki peyğəmbərlərin söylədikləri ən fəzilətli söz "Allahdan başqa İlah yoxdur, O təkdir, Onun şəriki yoxdur, mülk Onundur, həmd Ona aiddir. O, hər şeyə qadirdir" sözüdür." (Tirmizi, Da'avat 133)

13. Hz. Aişə (ə.s) izah edir: "Ey Allahın Rəsulu, dedim, Qədr gecəsində necə dua edim?" Bu duanı oxumamı söylədi: "Allahım! Sən əfvedicisən, əfvi sevərsən, məni bağışla". (Tirmizi, Da'avat 89)

## Qardaşlıq

14. Müsəlman özü üçün istədiyini qardaşı üçün də istəyəndir. (Buxari, İman, 7)

15.Müsəlman müsəlmanın qardaşıdır. Ona zülm etməz, onu (düşməninə) təslim etməz. Kim (mömin) qardaşının bir ehtiyacını aradan qaldırsa, Allah da onun bir ehtiyacını aradan qaldırar. Kim müsəlmanı bir çətinlikdən qurtarsa, Allah da onu qiyamət günü çətinliklərinin birindən qurtarar. Kim bir müsəlmanı(n qüsurunu)



örtsə, Allah da qiyamət günü onu(n qüsurunu) örtər. (Buxari, Mezalim, 3)

16. (Mömin) qardaşınla münaqişə etmə, onun xoşuna gəlməyən zarafatlar etmə və ona yerinə yetirməyəcəyin bir söz vermə. (Tirmizi, Birr, 58)

17. (Mömin) qardaşına təbəssüm etməyin sədəqədir. Yaxşılığı əmr edib pislikdən çəkindirməyin sədəqədir. Yolunu itirən kimsəyə yol göstərməyin sədəqədir. Yoldan daş, tikan, sümük kimi şeyləri qaldırıb atmağın da sənin üçün sədəqədir. (Tirmizi, Birr, 36)

18. "Salamı yayın, yemək yedirin, Allah-Təalanın sizə əmr etdiyi şəkildə qardaşlar olun!"

## İxlas

19. Allah sizin nə xarici görünüşünüzə, nə də mallarınıza baxar. Amma o sizin ürəklərinizə və işlərinizə baxar. (İbn Macə, Zühd, 9 )

20. İnsanda bir orqan var. Əgər o sağlamdırsa, bütün bədən sağlam olar, əgər o pozulsa bütün bədən pozular. Diqqət yetirin! O, ürəkdir. (Buxari, İman, 39)

## Tövbə

21. Hər insan səhv edər. Səhv edənlərin ən xeyirliləri tövbə edənlərdir. (Tirmizi, Qiyamə, 49)

22. İnsanın hər biri xəta edər. Ancaq xəta edənlərin ən xeyirlisi tövbəkar olanlarıdır." (Tirmizi, Qiyamət 50)

## Şükür və səbir

23. Mömininin başqa heç kimdə olmayan maraqlı bir halı var. Onun hər işi xeyirdir. Əgər bir genişliyə (nemətə) qovuşsa, şükür edər və bu onun üçün xeyir olar. Əgər bir darlığa (müsibətə) uğrasa, səbir edər və bu da onun üçün bir xeyir olar. (Müslim, Zühd, 64)

## Oruc və namaz

24. "Rəbbinizə qarşı çıxmaqdan çəkinin, beş vaxt namazınızı qılın, Ramazan orucunuzu tutun, mallarınızın zəkatını verin…." (Tirmizi, Cümə, 80)

25. Oruc pərdədir. Biriniz bir gün oruc tutarsa, pis söz sərf etməsin, qışqırıb-bağırmasın. Biri ona yaraşmayan söz deyəcəksə və ya döyüşəcəksə "mən orucluyam!'' desin''. (Müslim, Sıyam 164)

26. Rəsulullah (s.ə.v) namaza başlayanda bunu oxuyardı: "Allahım Səni hər cür nöqsan sifətlərdən təqdis edirəm, həmd Sənindir. Sənin adın mübarək, əzəmətin ucadır, Səndən başqa İlah yoxdur." (Tirmizi, Salat 179)

## Yemək yemə ədəbi

27. Ömər bin Xattab (ə.s) izah edir: "Rəsulullah (s.ə.v) buyurdular ki: "Şübhəsiz ki, bir nəfərlik yemək iki adama yetər, iki nəfərlik yemək də üç və dörd adama yetər. Dörd nəfərlik yemək də beş-altı adama yetər" (Buxari, Ətimə, 11 )

28. Ənəs İbn Malik (ə.s) izah edir: "Rəsulullah (s.ə.v) buyurdular ki: "Kim evinin xeyir və bərəkətini Allah-Təala həzrətlərinin artırmasını diləyirsə, yeməyə oturarkən və yeməkdən qalxarkən əllərini yusun".

## Dua

29. Rəsulullah (s.ə.v) iftar etdiyi zaman bu duanı oxuyardı: “Ey Allahım sənin razılığın üçün oruc tutdum və sənin ruzinlə orucumu açıram”. (Ebu Davud, Savm 22)

30. Rəsulullah (s.ə.v) yatağına girdiyi zaman bu duanı oxuyardı: “Bizə yedirib içirən, ehtiyaclarımızı görüb bizi saxlayan Allaha həmd olsun. Ehtiyaclı, sığınacaq verən kimsəsi olmayan o qədərdir ki!” (Müslim, Zikr 64)

31. Rəsulullah (s.ə.v) buyurdular ki: “Yatağına girdiyin zaman bu duanı oxu: “Allahım nəfsimi Sənə təslim etdim, üzümü Sənə çevirdim, işlərimi Sənə əmanət etdim, kürəyimi Sənə söykədim. Sənin rəhmətindən ümidvaram, qəzəbindən də qorxuram. Sənin əzabına qarşı Səndən başqa nə melca (sığınacaq yer) var, nə də qurtarıcı. Endirdiyin Kitaba, göndərdiyin Peyğəmbərə (s.ə.v) iman gətirdim”. (Buxara, Daavat 7, 9)

32. “Sizə iki şey qoyuram. Bunlara itaət etdiyiniz müddətcə əsla doğru yoldan ayrılmayacaqsınız: Allahın Kitabı və Rəsulunun sünnəsi”. (Muvatta, Qədər 3, (2, 899)

## Orucun fəzilətləri

Oruc ibadətinin Allahın razı olacağı ümid edilən şəkildə yerinə yetirilməsi güclü imanın, ixlasın, səmimiyyətin və Allah qorxusunun göstəricisidir. Çünki oruc Allah ilə qul arasındakı bir ibadətdir. İnsanın bu fərzi yerinə yetirərkən niyyətini, səmimiyyətini, ixlasını, haram və halallara nəzarət etdiyini ancaq Allah bilir. Orucun başqa bir faydası da insanların pisliklərdən uzaqlaşıb, nəfslərini tərbiyə etmələridir. Bunun yeganə yolu da, Allaha səmimi qəlblə iman gətirib, Rəbbimizin əmr və tövsiyələrinə itaət etmək, vicdanının səsini dinləyib, nəfsinin təşviqindən uzaq dayanmaqdır. Belə bir insanın əxlaqı zamanla gözəlləşəcək, imanı yetkinləşəcək və Allah qorxusu daha da güclənəcək.

İnsan Ramazan ayında aldığı xüsusi tərbiyənin nemətlərindən faydalanar. Çünki nəfsini tərbiyə etmiş, yəni əlindəki nemətlərin Allaha aid olduğunu və acizliyini dərk etmiş bir insanın həyatında bəzi dəyişikliklər meydana gəlir. Belə bir insanın dünyagörüşü, hadisələr qarşısındakı reaksiyası və şərhləri dəyişir. Allahın nemətləri olmadan yaşamağın qeyri-mümkün olduğunu başa düşən insanın dünyagörüşündə müsbət dəyişikliklər meydana gəlir.





# Hər An, Hər Saniyə Baş Verən Möcüzələr



Gündəlik həyatın yoğun temposuna aldanan bəzi insanlar, əslində, nə qədər mükəmməl sistem içində yaşadıqlarından bixəbərdirlər. Qəflət içində olduqlarına görə, öz həyatlarının minlərlə fərqli hadisənin müəyyən nizam içində işləməsinə bağlı olduğunun belə fərqinə varmırlar. Halbuki, həm özlərinin, həm də kainatdakı canlı və cansız bütün varlıqların həyatda qalması möhtəşəm sistemin həssas və qüsursuz şəkildə işləməsi ilə mümkün olur.

Bu möhtəşəm sistemin saysız-hesabsız halqalarından hər biri digərləri ilə mükəmməl uyğunluq və əlaqə içində işləyir. Bu halqalardan biri olmasa və ya funksiyasında xəta olsa, insanın təsəvvür etmədiyi çatışmazlıqlar meydana gələr. Bu vəziyyət bəlkə də dünyadakı canlılar aləminin tamamilə məhvinə səbəb olar.

Öz bədəninizdə və ətrafınızda hər an, hər saniyə baş verən və daha əvvəl heç eşitmədiyiniz möcüzələr olduğunu heç düşünmüsünüz?

# Möcüzəvi planet Yer



Günəş sistemindəki bütün qonşularından fərqli olaraq Yer həyat dolu planetdir. Göy üzündə, quruda və dənizlərdə ahəngdar həyat var. Bir-birindən fərqli quruluşa, rəng və xüsusiyyətə malik milyonlarla heyvan, bitki, həşərat və dəniz canlıları bu xüsusi planetdə birlikdə yaşayır.

Digər planetlərdəki mühit göstərir ki, Yerdəki həyat şərtlərindən biri olmasa, hər şey necə fərqli olar. Yer kürəmiz atmosferdən landşafta, elementlərdən Günəşlə arasındakı məsafəyə qədər hər cür müvazinəti ilə tamamilə həyat üçün xüsusi yaradılmışdır. Bu sistemin davam etməsi üçün hər an kainatın hər nöqtəsində ayrı bir möcüzə baş verir. Yerdəki canlılar aləminin yaradılışı qədər həyatlarına davam etməsi də böyük möcüzədir. Canlıların həyatını davam etdirməsi xüsusu nizamlı şərtlərlə təmin edilmişdir. Bu xüsusi şərtlərdəki kiçik dəyişikliklər belə dünyada böyük fəlakətlərə səbəb ola bilər. Ancaq Yer möcüzəvi şəkildə bütün canlılar aləmini qoruyan xüsusiyyətlərlə yaradılmışdır. Bütün bunlar sayəsində Yerdə möhtəşəm həyat bərqərar olmuşdur. Dünyanın bu qüsursuz yaradılışı Allahın insanlara çox böyük lütfüdür.

Allah yer üzünü canlıların varlığı və faydası üçün xüsusi yaradıb nizamladığını bir çox ayədə bildirir. Bu ayələrdən bəziləri aşağıdakılardır:

**O (Allah) ki, yer üzünü sizin üçün döşəmiş, orada sizin üçün yollar salmış, göydən yağmur yağdırmışdır. Biz o yağmurla növbənöv bitkilərdən cütlər yetişdirmişik. (Onlardan) yeyin, həm də heyvanlarınızı otarın. Həqiqətən, bunda ağıl sahibləri üçün dəlillər vardır! (Taha surəsi, 53-54)**



## Yer hər saniyə qorunur

Hal-hazırda atmosferin üst təbəqələrində meteorit yağışı yağdığını bilirdinizmi?

Çox vaxt fərqinə varmasaq da, Yeri əhatə edən atmosfer sayəsində hər an böyük fəlakətlərdən qorunuruq.

Saniyədə təxminən 40 km sürətlə Yerə istiqamət götürmüş meteoritlər atmosferə daxil olduqdan sonra sürtünmənin təsirindən yanmağa başlayırlar. Bu "kosmik bombalar" təbii qalxan funksiyasını yerinə yetirən atmosfer sayəsində bizə çatmadan əriyir.

Statistikaya əsasən, ildə təqribən 50.000 meteorit atmosferdə zərərsizləşir.

Ən böyük təhlükə isə nəhəng meteoritlərdir. Bunlardan hər hansı biri Yerə düşsə, böyük fəlakət baş verər. Hər il Yer kürəsinə gələn 10.000 tondan artıq böyük meteorit atmosferə daxil olduqda sürtünmənin təsirilə əriyir və bu yolla Yerdəki canlılar üçün həyati təhlükə olmur. Şübhəsiz ki, bu, Allahın "Rəhman" və "Rəhim" isimlərinin təcəllisidir. Bu həqiqət bir ayədə belə bildirilmişdir:

**Göyü mühafizə olunan bir tavan etdik. Onlar isə oradakı dəlillərimizdən üz çevirirlər. (Ənbiya surəsi, 32)**

# Yer üzünün ideal temperaturu



Yer kürəsi canlıların, xüsusilə də insan kimi kompleks quruluşa malik canlı varlıqların yaşaya biləcəyi temperatura və tənəffüs üçün atmosferə malikdir. Kainatdakı nəhəng temperatur yelpazəsində canlıların həyatına imkan verən temperatur intervalı çox dardır. Yer məhz bu temperatur intervalında yerləşir.

Geoloq Frank Press bir planetdə həyatın olması üçün lazımlı temperatur intervalı haqqında belə deyir:

***"Həyat ancaq çox məhdud temperatur intervalında mümkündür... Və bu temperatur intervalı Günəşin temperaturu ilə mütləq sıfır arasındakı mümkün temperaturların təqribən 1%-ni təşkil edir. Yerin temperaturu məhz bu dar intervaldadır". (F. Press, R. Siever, Earth, New York: W.H. Freeman, 1986, səh. 4)***

Allah Yeri və bütün kainatı elm adamlarının da vurğuladığı kimi, tam mənada canlıların həyatı üçün əlverişli yaratmışdır. Bu, Allahın qulları üzərindəki lütf və rəhmətinin əsəridir:

**Məgər Allahın göydən yağmur endirdiyini və yer üzünün (onunla) yamyaşıl olduğunu görmürsənmi? Həqiqətən, Allah lütfkardır, xəbərdardır. (Həcc surəsi, 63)**

# Günəş sistemində müntəzəm qorunan gizli müvazinət



Günəş sisteminin quruluşunu tədqiq etdikdə hər təfərrüatında həssas müvazinət və incə ölçü ilə qarşılaşırıq. Məsələn, planetləri dondurucu soyuqluğa malik kosmosa sovrulmaqdan qoruyan amil Günəşin cazibə qüvvəsi ilə planetlərin mərkəzdənqaçma qüvvəsi arasındakı müvazinətdir.

Günəş güclü cazibə qüvvəsinə görə bütün planetləri cəzb edir. Planetlər isə dönmələri nəticəsində əmələ gələn mərkəzdənqaçma qüvvəsi sayəsində bu cazibə qüvvəsindən təsirlənmirlər. Ancaq: əgər planetlərin dönmə sürəti bir az yavaş olsaydı, onda bu planetlər sürətlə Günəşə doğru cəzb olunar və Günəş böyük partlayışla onları udardı. Əgər planetlər daha sürətlə dönsəydilər, bu dəfə də Günəşin cazibə qüvvəsi onları saxlaya bilməz və planetlər kosmosa sovrulardılar. Lakin bu həssas müvazinət hər an, hər saniyə qüsursuz işləyir.



## Həyat üçün lazımlı amillərin siyahısı:

Buraya qədər Yerdəki həyat üçün lazımlı amilllərin sadəcə bir neçəsinə toxunduq. Məşhur amerikalı astronom Hyu Ross "Yaradan və kainat" adlı kitabında Yerdəki bəzi digər amilləri belə sadalayır:

### Ay ilə Yer arasındakı cazibə qüvvəsi

Əgər daha çox olsaydı, Ayın güclü cazibə qüvvəsi atmosfer hadisələrinə, Yerin öz oxu ətrafındakı dönmə sürətinə və okeanlardakı qabarma-çəkilmələrə mənfi təsir edərdi.Əgər daha az olsaydı, kəskin iqlim dəyişikliklərinə səbəb olardı.

### Yerin maqnit sahəsi

Əgər daha güclü olsaydı, güclü elektromaqnit fırtınaları baş verərdi. Əgər daha zəif olsaydı, Günəş küləyi adlanan və Günəşdən atılan zərərli zərrəciklərə qarşı Yer kürəsi qorunmazdı. Hər iki halda, həyat qeyri-mümkün olardı.

### Yer kürəsinin ölçüsü

Daha kiçik olsaydı, Yerin cazibə qüvvəsi zəifləyər və atmosferi Yerin ətrafında saxlaya bilməzdi.

Daha böyük olsaydı, Yerin cazibə qüvvəsi artar və bəzi zəhərli qazları da cəzb edərək atmosferi həyat üçün təhlükəli edərdi.

### Ozon təbəqəsinin qalınlığı

Əgər daha çox olsaydı, yer üzünün temperaturu çox aşağı düşərdi.

Əgər daha az olsaydı, yer üzü həddindən artıq isinər, Günəşdən gələn zərərli ultrabənövşəyi şüalara qarşı müdafiə olunmazdı.

### Seysmik hərəkətlər

Əgər daha çox olsaydı, canlılar üçün daima təhlükə olardı.

Əgər daha az olsaydı, okeanın dibindəki qida maddələri suya qarışmaz, bu, okean və dənizlərdəki həyata, o cümlədən, yer üzündəki bütün canlılara mənfi təsir edərdi.

Bu siyahıdakı kimi milyonlarla, hətta milyardlarla ölçü və həssas müvazinət Allahın hər an, hər saniyə yaratması ilə insanın faydasına işləyir. Sadəcə bəzi nümunələrini verdiyimiz bu müvazinətlər bizə bir daha göstərir ki, bütün kainatı və canlıları Rəbbimiz yaratmışdır.

**Sizin üçün yeri məskən, göyü tavan edən, sizə surət verən, surətlərinizi gözəlləşdirən, sizə təmiz nemətlərdən ruzi verən Allahdır! Rəbbiniz olan Allah budur. Aləmlərin Rəbbi olan Allah nə qədər ucadır! (Ğafir surəsi, 64)**

### Kainatda hər an, hər saniyə baş verən möcüzələr

Günəş sistemindəki səkkiz planetin səkkizindən heç biri həyat üçün uyğun şərtlərə malik deyil. Hər biri ölü səhradan da cansızdır. Çünki bəzisində +475 dərəcəyə çatan temperatur, bəzisində zülmət qaranlıq, bəzisində isə havasız və susuz mühit hakimdir. Bəzilərində həyata əsla imkan verməyən dondurucu soyuqlar, bəzilərində isə saatda 2000 km sürətlə əsən fırtınalar və vulkanlar var.

Bir sözlə, Günəş sistemində məlum olan doqquz planetdən səkkizi və onların 53 peyki arasında həyat üçün əlverişli bir dənə də göy cismi yoxdur. Hamısı ölü, səssiz maddə yığınıdır. Ancaq biri istisna olmaqla: Yer...



## Uca Allah Asimdir (Qoruyandır)

Allah göyləri və yeri nəzarətdə saxlayır, kainatdakı bütün canlıları bildikləri və ya bilmədikləri böyük təhlükələrə qarşı hər an qoruyur. Bütün bunlarda düşünən insanlar üçün ibrətlər olduğunu Allah bir ayədə belə xəbər verir:

**Həqiqətən, göylərin və yerin yaradılmasında, gecə ilə gündüzün bir-birini əvəz etməsində, içərisində insanlar üçün mənfəətli şeylər olan gəmilərin dənizlərdə üzməsində, quruyan yer üzünü Allahın göydən yağmur yağdıraraq yenidən diriltməsində, cins-cins heyvanları hər tərəfə yaymasında, göylə yer arasında ram edilmiş küləyin və buludların bir səmtdən başqa səmtə döndərilməsində düşünən insanlar üçün dəlillər vardır. (Bəqərə surəsi, 164)**

## Mərkəzdənqaçma qüvvəsinin hər planet üçün ayrı ölçüsü

Günəş sistemindəki planetlərin Günəşlə aralarındakı məsafələr fərqlidir. Habelə kütlələri də fərqlənir. Buna görə, hamısının müxtəlif dönmə sürəti var. Ancaq bütün bu təfərrüatlar mövcud qüsursuz nizamda hər hansı çatışmazlıq əmələ gətirmir. Çünki mərkəzdənqaçma qüvvəsi hər planetin kütləsinə, Günəşlə arasındakı məsafəyə və dönmə sürətinə paralel olaraq ayrı-ayrı yaradılmışdır. Ona görə, planetlər onlara məxsus yaradılmış bu qüvvə sayəsində həm Günəş tərəfindən udulmur, həm də kosmosa sovrulmurlar.

## Yerin oxu nə üçün mailidir?

Yerin oxu 23 dərəcə, 27 dəqiqə mailidir. Bu maillik qütblərlə ekvator arasında atmosferin əmələ gəlməsinə mane olan həddindən artıq isinmənin qarşısını alır. Əgər Yerin oxu maili olmasaydı, qütb bölgələri ilə ekvator arasındakı temperatur fərqi çox olar və atmosfer həyat üçün əlverişsiz olardı.

*Siz bu sətirləri oxuyarkən keçən hər saniyədə:*

**Aydan gələn işıq gözünüzə çatdı.**
**Günəşdən gələn hər bir foton 300.000 km məsafə qət etdi.**
**Yağışlar vasitəsilə yer üzünə 16 milyon ton su endi.**
**Yer üzündə 100 şimşək çaxdı.**
**Yer kosmosda 30 km məsafə qət etdi.**
**Günəş 564 milyon ton hidrogeni 560 milyon ton heliuma çevirdi.**

# Bir ayə, Bir açıqlama

**(Bu Quran) sənə nazil etdiyimiz mübarək bir Kitabdır ki, onun ayələrini düşünüb dərk etsinlər və təmiz ağıl sahibləri də ibrət alsınlar! (Sad surəsi, 29)**

Allah insanlar üçün yolgöstərici kitab olan Qurani-Kərimi Peyğəmbərimizə (s.ə.v) vəhy etmiş və bütün bəşəriyyəti ona tabe olaraq xilas olmağa dəvət etmişdir. Dünyada yaşayan hər insan Quranı öyrənmək və Quranda bildirilən əmrləri yerinə yetirməklə məsuldur.

Allah "Sad" surəsindəki bu ayədə Quranın hər ayəsi üzərində dərin düşünməyi xəbər verir. Düşünən insan özünü və kainatı yoxdan yaradan, heç nə olduğu halda, ona can verən, saysız-hesabsız nemət və gözəllik bəxş edən Yaradanımızı tanımaq və Onun hansı davranışlardan razı qaldığını öyrənmək istəyər. Buna görə, Allahın insanlara rəhbər kimi nazil etdiyi, doğru ilə yanlışı bir-birindən ayırd etdiyi Kitabı çox yaxşı bilmək, hər ayəsinin üzərində düşünərək Allahın əmrlərini ən doğru şəkildə yerinə yetirmək lazımdır. Allahın razılığını, rəhmətini və Cənnətini qazanmağın yolu da Quranın hər ayəsi üzərində düşünmək və hər ayədən öyüd alaraq Quran əxlaqına uyğun yaşamaqdır.

Uca Allah ayədə Qurandan öyüd alanların təmiz ağıl sahibləri olduğunu bildirir. Təmiz ağıl sahibi olmaq dərin biliyə malik olmağı, dərin düşünməyi, təfərrüatları dərk etməyi, hikmətli danışmağı, doğru ilə yanlışı bir-birindən ayırd etməyi və xeyirləri görməyi ifadə edir. Vicdanının səsini dinləyərək Allaha üz tutan hər insan qısa müddətdə təmiz ağıla sahib ola bilər. Bunun üçün Allaha səmimi iman gətirmək, Ondan lazım olduğu kimi qorxmaq və Rəbbimizin istədiyi kimi yaşamaqdır. Bu səmimi iman insana ağıl qazandırır. Təmiz ağıl sahibləri hər cür boş fikirdən, heç kimə faydası olmayan lazımsız şübhələrdən və mənasız fikirlərdən uzaqdırlar.

Quranın rəhbərliyi altında dərin düşünməyin qazandırdığı iman və bu imanın artması ilə inkişaf edən ağıl möminlərin Allahı daha yaxşı və yaxından tanımalarına, hər an hər yerdə Onun təcəllilərini görmələrinə və Allahın qüdrətini haqqı ilə təqdir etmələrinə səbəb olur. Yalnız Allahın rizasını qazanmaq üçün istifadə edilən bu ağıl, Allahın iznilə, həm dünyada, həm də axirətdə rahat həyat imkanı verir.

# Ramazanda sağlamlığa diqqət yetirək

**Oruc tutarkən nəyə diqqət yetirmək, hansı yeməkləri yemək, hansıları məhdudlaşdırmaq lazımdır?**

**Ramazanda kökəlməmək üçün necə qidalanmaq lazımdır?**

Bütün İslam dünyasının hər il həyəcanla gözlədiyi mübarək Ramazan ayındayıq. Ramazan ayı bütün insanlara Allah sevgisini, qardaşlığı, sülhü, insanların acizliyini xatırladan və müsəlmanları doğru yola dəvət edən xeyirli aydır.

**Uca Allah Quranda Ramazan ayının "min aydan daha xeyirli olduğunu"** (Qədr surəsi, 3) bildirir. Quran üstün əxlaq sahibi Peyğəmbərimiz hz. Muhəmmədə (s.ə.v) təxminən 1400 il əvvəl Ramazan ayında endirilmişdir. Dünya müsəlmanları Ramazan ayında fərz olan oruc ibadətini böyük coşğu ilə yerinə yetirirlər.

Tövsiyə məqsədilə hazırladığımız məqalədə həkimlərin və qida mütəxəssislərinin Ramazan ayında sağlam qidalanmağa dair fikirlərini və təkliflərini sizin üçün topladıq. Bütün İslam aləminin Ramazan ayını sağlam, rahat, sülh, bərəkət və təsanüd içində keçirmələrini uca Allahdan diləyirik.



## *Səhv qidalanma vərdişlərinə diqqət!*

Oruc ibadətini sağlamlıq baxımından problemsiz reallaşdırmaq üçün bəzi səhv qidalanma vərdişlərindən çəkinmək lazımdır. Oruc tutanların Ramazanda imsak və iftarda yediklərinə diqqət yetirmələri sağlamlıq baxımından böyük əhəmiyyət kəsb edir. Bundan başqa, gün ərzində bədəndə baş verən dəyişikliklərə qarşı da diqqətli olmaq lazımdır. Uzun müddət ac qalmaq iştahı və doyma hissini artırdığı üçün yeməyin normadan çox və sürətlə yeyilməsinə gətirib çıxarır. Bu səbəbdən, xüsusilə iftar zamanı tez-tez və çox yemək sağlamlıq baxımından təhlükəlidir.

Ramazanda

ət, çörək, plov, makaron, xəmir xörəkləri, şirniyyatların çox, tərəvəz və meyvənin isə az yeyilməsi müşahidə edilir. Halbuki, bədənin sağlam olması üçün gündəlik olaraq lazım olan enerji, zülal, vitamin və mineral nisbətləri Ramazanda dəyişir. İftar və imsakda çox yemək, tez-tez yemək, müxtəlif növ yemək yemək, imsaka qalxmamaq kimi səhvlər xora, mədə qanaması və digər xəstəliklərə səbəb olur. Bu və buna bənzər səbəblərlə bədəninizi yormamaq və sağlam şəkildə oruc tutmaq üçün bəzi məqamlara diqqət yetirmək lazımdır.

Bəzi xəstələrin Ramazanda oruc tutması məqsədəuyğun deyil. Buna misal olaraq təzyiq, şəkər, ürək və xora xəstəliyi olan insanları göstərə bilərik. Bu xəstəliklərdən başqa, həzm sistemində narahatlığı olan insanların da oruc tutması məqsədəmüvafiq deyil. Bu xəstəliklərin başında isə reflyuks xəstəliyi durur. Uzun müddət ac qalanda mədədə normadan artıq turşu olduğu üçün xora xəstələri oruc tutmadan əvvəl mütləq həkimlə məsləhətləşməlidirlər.

## Oruc tutarkən sağlamlıq baxımından nəyə diqqət yetirmək lazımdır?

Oruc tutanlar kifayət qədər su içməli və yuxu rejiminə diqqət yetirməlidirlər. Yuxusuzluq baş ağrısı və təzyiqin düşməsinə gətirib çıxara bilər. Ramazanda maddələr mübadiləsi zəiflədiyinə görə kökəlmək asanlaşır. Bu səbəbdən, kalorili ağır yeməklərdən çəkinmək lazımdır. Ramazanda həzm sistemi problemləri yaşamamaq üçün quru ərik və quru meyvə yemək vacibdir.

İmsaka qalxmadan oruc tutulsa, aç qalma müddəti uzandığından maddələr mübadiləsi zəifləyər, halsızlıq, baş ağrısı yarana bilər.

İmsaka qalxsanız da, qalxmasınız da yeməklərinizi yavaş yeyin, loxmalarınızı çox çeynəyin və kifayət qədər su için. Ağır, yağlı və ədviyyatlı yeməklərdən çəkinin.

Oruclu olarkən bədəniniz uzun müddət susuz qaldığından iftarla imsak arasında tez-tez su içmək lazımdır.

Oruc əsnasında çox susayırsınızsa, imsakda turşu, şoraba və b. duzlu yeməklər yeməyin.



Oruc tutulan zaman qanda şəkər düşür. İftarda birdən yemək yeyəndə qanda şəkər sürətlə yüksəlir. Əgər imsaka qalxmırsınızsa, qanda şəkərin düşməsi günün erkən saatlarında başlayır, günün sonunda isə çox aşağı düşür. Bu səbəbdən, az miqdarda və tez-tez yemək iftardan sonra da tətbiq olunmalıdır.

Ramazanda hərəkətsiz qalmamağa diqqət göstərilməlidir. İftardan 2 saat sonra özünüzü çox yormadan gəzə bilərsiniz.

Çox yediklərinizi yandırmaq üçün tox qarnına gəzməyin, qaçmağın, idman salonlarında həddindən enerji sərf etməyin təhlükəli olduğunu da unutmayın.

## İftara necə başlamalı, hansı yeməkləri yeməli?

İftara su, şorba və yüngül yeməklərlə başlayın.

İftarda sürətlə və çox miqdarda yemək yeməyin.

İftardan bir neçə saat sonra əsas yeməyi yeyin. Meyvə və tərəvəzə üstünlük verin. Qatıq, ayran və ya süd için.



İftarda yavaş və az miqdarda yeyin. Bu, ən ideal iftar süfrəsi kimi təklif edilir.

Təzə paxla, ispanaq, badımcan, gül kələmi, ağ kələm, brokoli kimi az yağlı tərəvəz yeməkləri ilə az miqdarda yağsız balıq və ya toyuq və quru paxlanı seçin.

İftar süfrələrinin ənənəvi növlərindən olan şirniyyatları isə yeməkdən iki saat sonra yeyin.

## İmsakda hansı qidaları seçməliyik?

İmsakda ədviyyatlı, yağlı, duzlu, turş və s. yeməklərdən çəkinin.

İmsakda çox yemək yerinə, kəpəkli taxıl məhsulları, tərəvəz, salat kimi yüngül yeməkləri seçin.

Ramazanda, xüsusilə imsakda lifli qidalara üstünlük verin. Qızartma, kabab və s. ağır və ədviyyatlı yeməklərdən uzaq durun.

İftar və imsak arasında ən az 1-2 boşqab meyvə yeməyə çalışın.

İftar və imsak arasında meyvə şirəsi, ayran və s. maye için, turş içkilərdən çəkinin.

## Hansı qidaları məhdudlaşdırmalıyıq?

Normadan artıq süfrə şəkəri, cem, bal, bəhməz, ağ undan hazırlanmış məhsullar, ağır şirniyyatlar, çox duzlu qidalar, çox ədviyyatlı, qızarmış və yağlı hər cür qida, qazlı içkilər.

Ramazan ayında xəmir şirniyyatlarının çox yeyilməməsini tövsiyə edən mütəxəssislər bu şirniyyatların yerinə südlü şirniyyatlara üstünlük verməyi məsləhət bilirlər. Bundan başqa, dietistlər çox içilən kompotun insulini artırdığını, buna görə də quru meyvələrin kompotunun çox az şəkərlə bişirilməsini təklif edirlər.

Bununla yanaşı, Ramazanda hazır məhsulları, xəmir xörəkləri və qızartmaları az yeməyə çalışın.



**Sağlam qidalar hansılardır?**

Ramazanda gün ərzində ac qalındığı üçün həddindən artıq yemək yerinə, qara taxıl məhsulları, tərəvəz, salat kimi qidaları seçmək daha doğrudur. Bundan başqa:

Karbohidratlı və qlikemik indeksi aşağı olan qidalar (qara çörək, kəpəkli məhsullar, yulaf, şaftalı, armud);

Omeqa 3 və fol turşu ilə zəngin qidalar (tam undan hazırlanmış məhsullar, ispanaq, göy noxud, pomidor suyu, qızılbalıq, brokoli, kətan toxumu, mərcimək, qoz, badam, sardina, skumbriya və ton balığı)

Maye yağlarla bişirilən yeməklər (xüsusilə zeytun yağı)

C vitamin ilə zəngin meyvələr ən sağlam qidalardandır.

## Ramazanda kökəlmədən necə qidalanmaq olar?



İftarda yeyilən karbohidratlı qidalar iştah açmada əhəmiyyətli rol oynayan insulin hormonunun ifraz olunmasına gətirib çıxarır. Bu səbəbdən, iftarda çox yeyən insanlar sürətlə kökələrkən, ürək və qan-damar xəstəlikləri ilə də qarşı-qarşıya qala bilərlər.

İftarda yeyilən xəmir xörəkləri, pide və şirniyyatlar yüksək kalorili olduğundan kökəlməyə səbəb olur. Bu da, qan yağlarında və təzyiqin artmasında özünü göstərir. Ramazanda kökəlməmək üçün çox su içmək lazımdır.

Peyğəmbərimiz (s.ə.v) deyir ki:

***Oruc pərdədir. Biriniz bir gün oruc tutarsa, pis söz sərf etməsin, qışqırıb-bağırmasın. Biri ona yaraşmayan söz deyəcəksə və ya döyüşəcəksə "mən orucluyam!" desin".*** (Müslim, Sıyam 164)

***"Rəbbinizə qarşı çıxmaqdan çəkinin, beş vaxt namazınızı qılın, Ramazan orucunuzu tutun, mallarınızın zəkatını verin…."*** (Tirmizi, Cümə, 80)

Ramazan ayında bu şərəfli ibadəti yerinə yetirərkən, eyni zamanda, sağlam şəkildə qidalanmağa da diqqət yetirilməlidir.

# Fədakar insan dünyanın ən ağıllı və ən qazanclı insanıdır

**Din əxlaqından uzaq həyat tərzi keçirən insanlar arasında fədakarlıq bir növ ağılsızlıq hesab edilir. Onların fikrinə görə, insan öz mənfəətini nə qədər yaxşı güdürsə, bir o qədər ağıllıdır. Ətrafındakı insanların imkanlarından nə qədər çox istifadə edə bilirsə, özündən isə nə qədər az istifadə etdirirsə, insanlara nə qədər az mənfəət verirsə, deməli, bu adam ağlından maksimum istifadə edə bilir.**

Əlbəttə ki, bu insanlar yanılırlar. Axirətə inanmayanlar üçün başqa insana mənfəət vermək, onun rahatlığını təmin etmək, üstəlik, bunları özünün rahatlığından keçərək etmək ağılsızlıq kimi qəbul edilə bilər. Ancaq axirətə inanan bir insan bunları yalnız Allahın razılığını qazanmaq üçün edirsə, dünyanın ən ağıllı insanıdır.

Allah hər bir insana təxminən 60-70 illik ömür vermişdir. Bu zamandan ən yaxşı şəkildə istifadə edənlər isə ağıllı insanlardır. Ancaq həyatdan ən yaxşı şəkildə istifadə etmək dünyadan maksimum yararlanmaq demək deyil. Əksinə, güzəştə getməkdir. Əlbəttə, burada əhəmiyyətli olan bunları Allahın razılığını qazanmaq üçün etməkdir.



Din əxlaqına görə yaşamayan cəmiyyətlərdə ətrafındakı insanlara özlərini nümayiş etdirən, var gücləri ilə başqalarını xoşbəxt etmək, onlara daha yaxşı imkanlar vermək, rahatlatmaq üçün çalışan insanlar da var. Ancaq bu insanların hədəfləri Allahın razılığı deyil. Yaxşılıq etdikləri hər insanı sanki bir sərmayə mərkəzi kimi görürlər. Etdikləri hər fədakarlıqla, əvvəl-axır, o insandan bunun əvəzini görəcəklərini ümid edirlər. Onlara fədakarlıq etmə gücünü verən əvəzini alma ümididir. Dostlarına bir hədiyyə alanda, o insanın da ona ən az o miqdarda hədiyyə alacağını ümid edirlər. Bir yoldaşlarını işə düzəldəndə, gələcəkdə o insanın da ona iş düzəldəcəyinə ümid edirlər. Bir qonşularına yemək verəndə qısa müddətdən sonra qonşularının onlara nəsə verəcəyini gözləyirlər. Bu insanlardan umduqları tərzdə əvəz görməsələr belə, onların dostluqlarını qazanmaq bu insanlar üçün əhəmiyyətli mənfəətdir. Əlbəttə, bu sərmayələrin işə yarayacağı və ehtiyac duyulacağı bir günün gələcəyinin qənaətindədirlər. Hətta öz uşaqlarına belə yaxşılıq edəndə yaşlandıqları zaman onların da borclarını ödəyəcəklərinə inanırlar. Uşaqlarını nə qədər yaxşı tərbiyə etsələr, onlara nə qədər yaxşı imkanlar təmin etsələr, karyeralarının yüksəlməsi üçün nə qədər çox səy göstərsələr, gələcəkdə bu imkanların onlara rahat həyat bəxş edəcəyini düşünürlər.

Möminlər isə fədakarlıq gücünü yalnız Allaha olan sevgilərindən, Allaha qarşı duyduqları dərin hörmət və qorxudan alırlar. Allahın sevgisini qazanmaq istəyi möminlərin 24 saat şövqlü və həyəcanlı olmalarını təmin edir. Ən çətin, yorğun, gücsüz olduqları anlarda belə, Allah sevgilərindən aldıqları güclə daha çox fədakarlıq etməyə çalışırlar. Qarşılarına çıxan hər imkanı qiymətləndirməyə çalışırlar. O an fədakarlığı edə bilən başqa insanlar olsa da, onlar xeyirlərdə yarışırlar. Heç bir səbəb axtarmadan belə imkanı başqasına buraxmağı özləri üçün itki hesab edirlər.

Möminin fədakarlığı onun Allahı öz nəfsindən, bədənindən, malından, mülkündən, həyatından və sahib olduğu hər şeydən daha çox sevdiyinin açıq əlamətidir. Belə bir insan Allahın sevgisini qazanmaq üçün heç düşünmədən hər şeyini fəda edəcək gücə sahibdir. Canını, malını, sahib olduğu hər şeyi Allaha təslim etmişdir. Allah Quranda bu əxlaqı göstərən möminləri müjdələmiş və böyük qurtuluş və xoşbəxtliyin ancaq bu şəkildə əldə ediləcəyini xatırlatmışdır:

**Məhz onlar yaxşı işlər görməyə tələsər və bu işlərdə öndə gedərlər. (Muminun surəsi, 61)**



# "Ənsuz da mən cənnətə gedəcəm" kimi düşünənlər

Dini yaşamayan cəmiyyətlərdə insanların özlərini aldatdıqları mövzulardan biri də özlərinin cənnətə girməyə layiq olduqlarını düşünmələridir. Bu insanların çoxu ölümdən sonra həyat olduğunu qəbul etmələrinə baxmayaraq, din əxlaqını yaşamamalarının səbəbi özlərinin mütləq cənnətə gedəcəklərini düşünmələridir. Bu cür düşünən insanların haradan belə bir qənaətə gəldikləri məlum deyil. Amma əksəriyyəti özünü digər insanlarla müqayisə edərək yalnız yaxşı tərəflərini görür və yaxşı insan olduğu üçün də cənnətə girməyə layiq olduğu qənaətinə gəlir.

Ən təəccüblü olanı da bu insanlar "yaxşılıq" anlayışını Qurana görə deyil, cahiliyyəyə uyğun qiymətləndirirlər. Allahın razı olduğu həyatı və əxlaqı deyil, yaşadıqları cəmiyyətin razı qaldığı həyat və əxlaqı seçirlər. Nəticədə, özlərini aldadaraq cənnətə girəcəklərini düşünürlər.

Şübhəsiz ki, Allahdan cənnəti ümid etmək və istəmək gözəl şeydir. Bu istəyin səmimi olduğunun ən əhəmiyyətli göstəricilərindən biri insanın həyatının hər anında cənnətə yaraşacaq əxlaq göstərməsi və Allahdan qorxub çəkinərək hərəkət etməsidir. Əks halda, yəni Allahın razı olmadığı həyat tərzi keçirərək, qulluq vəzifələrini yerinə yetirmədən cənnətə gedəcəyini düşünmək insanın özünü aldatmasından başqa bir şey deyil.

Bu düşüncəyə görə, insan həm Allaha qulluq etmədən ömrünü öz nəfsinin istək və həvəslərinə görə keçirər, həm də axirətdə Allahın səmimi və saleh qulları üçün hazırladığı cənnətində onların arasında nemət içində olacağını düşünər. Belə bir düşüncəyə sahib insanın Qurandan heç bir məlumatı olmadığı anlaşılır. Çünki Quran ayələrində bildirilən həqiqətləri dərk edən insan bu şəkildə xilas olmasının mümkün olmadığını, bu yolla yalnız özünü aldatmış olacağını çox yaxşı anlaya bilər.

Bir insan Quranda təsvir edilən cəhənnəm mühitini öyrənib dərk etsə, bir an belə cəhənnəmdə olmağı gözə almaz. Hətta cəhənnəmdə olmaqdan başqa, cəhənnəmə yaxınlaşmaqdan belə şiddətlə qaçar. Çünki cəhənnəm insanın dünyada təsəvvür belə edə



bilməyəcəyi çətinliklərlə, ağrı və əzablarla, çirkinliklərlə dolu məkandır. Allah Quranda cəhənnəm əzabının insanların yox olmaq istəyəcəkləri qədər şiddətli əzab olduğunu bildirmişdir:

**Əlləri boyunlarına bağlı vəziyyətdə dar bir yerə atıldıqları zaman özlərinə bəd dua edib ölümü diləyərlər. (Furqan surəsi, 13)**

**(Cəhənnəmin gözətçisinə) "Ey Malik! Qoy Rəbbin bizi öldürsün!" - deyəcəklər. O isə "Siz (həmişəlik burada) qalacaqsınız!" – deyə cavab verəcəkdir! (Zuxruf surəsi, 77)**

Bu insanlar dünya həyatından istədikləri kimi faydalanıb, bunun qarşılığında cəhənnəmdə bir müddət qalacaqlarını, daha sonra bağışlanacaqlarını düşünürlər. Halbuki, heç bir insanın -Allahın istəyi olmadan- belə bir zəmanəti yoxdur.

## Cəhənnəm sonsuza qədər var olacaq əzab yeridir.

"Hər necə olsa bir müddət qalıb cəhənnəmdən çıxaram", - deyə düşünənlər Allahdan qorxmayan, Onun əzabını düşünüb qavramayan şəxslərdir. Allah bu zənn ilə hərəkət edən insanlardan və onların uğrayacaqları sondan Quranda bəhs etmişdir:

**Onlar: "Cəhənnəm odu bizə bir neçə gündən artıq əzab verməz" –deyərlər. De ki: "Allahdan belə bir vəd almısınızmı? Allah heç vaxt Öz əhdindən dönməz. Yoxsa Allaha qarşı bilmədiyinizi söyləyirsiniz?" Bəli, günah qazanan və qazandığı günahlarla əhatə olunan şəxslər cəhənnəmlikdirlər və orada həmişəlik qalacaqlar. İman gətirənlər və yaxşı işlər görənlər isə behiştlikdirlər və orada əbədi olacaqlar. (Bəqərə surəsi, 80-82)**

Bu halda, heç kim özünü aldatmasın: Allaha boyun əyib təslim olmadığı və Rəbbimizi razı etmədiyi müddətcə heç kim cənnətin qapılarından içəri girə bilməyəcək.



# İslam Dünyasının Çox Yaxın Aydın Gələcəyi

11 sentyabr 2001-ci ildə baş verən bəşəriyyət tarixinin ən qanlı terror hadisəsinin İslam dünyasındakı əks-sədaları 2002-ci ildə də çox hiss edildi. Dünyanın bir çox ölkəsində keçirilən konfranslarda və yazılan məqalələrdə İslam dininin hər cür terroru lənətlədiyi dilə gətirildi, İslamın sülh dini olduğu insanlara çatdırıldı. Unutmaq olmaz ki, bütün dünyanın İslam dinini daha yaxından tanımasına səbəb olan bu hadisələr Allahın Quranda və Peyğəmbərimizin (s.ə.v) hədislərində müjdələdiyi mübarək dövrün əlamətidir...

## İslam coğrafiyasında zülm və göz yaşı

Bu gün İslam dünyasına baxdıqda Əlcəzair, Bosniya, Tunis, Eritreya, Misir, Əfqanıstan, Kəşmir, Şərqi Türkistan, Çeçenistan, Tailand, Filippin, Birma və ya Sudanda müsəlmanların təzyiq altında olduğunu və məhv edildiyini açıq-aşkar görürük. Bosniyada serblər, Kəşmirdə hindlilər, Qafqazda ruslar, Filippin, Əlcəzair, Misir, Mərakeş kimi ölkələrdə zorakı rejimlər müsəlmanları hədəfə alıb. Ancaq nədənsə bir-birilə əlaqəsiz görünən bu anti-İslam qüvvələri eyni məntiqlə hərəkət edir, oxşar strategiyalar yeridir və bənzər metodlardan istifadə edirlər. Burada sözügedən qüvvələrin ortaq cəhəti olan dindən uzaq şəxsiyyətləri qarşımıza çıxır.

## Həll yolu dinsizliyə qarşı ideoloji mübarizədir

Allahın varlığını inkar edən və bütün İlahi dinləri öz qurduqları dindənkənar sistemlər üçün böyük düşmən kimi görən, buna görə də dinə və dindarlara qarşı güclü mübarizə aparan bu qüvvələr dinsiz ideologiyaları təmsil edirlər. Bu səbəbdən, müsəlmanların qarşısındakı düşmən, əslində, serblər, hindlilər və ya digər zorakı rejimlər deyil, dünyadakı dindənkənar anlayışdır. (Harun Yahya, "Altınçağ")

Dinsizlik təkcə imanlı insanları hədəf götürən, onların imanlarını məhv etməyə çalışaraq axirətlərini təhlükə altında qoyan güc deyil, eyni zamanda, batil ideoloji cərəyanların təməlini təşkil edərək dünyanı qarışıqlıq və döyüş cəbhəsinə çevirən bataqlıqdır. Müsəlmanlar isə bu qarışıqlıq və müharibə mühitində ən böyük hədəf kimi seçiliblər.

Ona görə də, dinsizliyə qarşı ideoloji mübarizə həm böyük imani xidmət, həm də dünyanı bürüyən fitnəyə qarşı aparılacaq mənəvi müharibədir. Hələ də dünyanın hər tərəfində dinsiz sistemlər tərəfindən əzilən bir çox müsəlmanın olması bizə bu mübarizənin nə qədər mühüm olduğunu göstərir. Dinsizlik

(və dinsizliyin əsasları olan fəlsəfə, ideologiya və darvinizm kimi "elmi" nəzəriyyələr) üzərində qazanılacaq hər ideoloji qələbə, eyni zamanda, dünyadakı məzlum müsəlmanlara yardım mənasını daşıyan mənəvi zəfərdir.



## İslam torpaqlarına baş verənlər və axırzaman

Axırzaman bir çox insan üçün tanış məfhum olmaya bilər. Buna görə, əvvəlcə bu məfhumu qısaca açıqlamaqda fayda vardır. Axırzaman "son dövr" mənasını verir və İslam mənbələrinə əsasən, qiyamətə yaxın zamanda, Quran əxlaqının bütün dünyaya hakim olacağı dövrü ifadə edir. Bu dövrdə insanların sülh və əmin-amanlıq içində yaşaması üçün bütün lazımi şərait mövcud olacaq. Əvvəlki dövrlərdə baş vermiş hər cür sıxıntının yerini bolluq-bərəkət və ədalət tutacaq. Əxlaqsızlıqlar, saxtakarlıqlar, hər cür degenerasiya aradan qalxacaq. Bu dövr bütün inanan insanların əsrlərlə həsrətini çəkdiyi İslam əxlaqının hakim olduğu mübarək dövr olacaq.

Peyğəmbərimizin (s.ə.v) hədislərində axırzaman ətraflı açıqlanır. Ondan sonra bir çox İslam alimi də axırzaman haqqında mühüm açıqlamalar veriblər. Bu açıqlamalarda axırzamanda əvvəlcə böyük əxlaqi çöküntü və qarışıqlıq baş verəcəyi, daha sonra həqiqi dinin hakim olması ilə dünyanın xilas olacağı, böyük bolluq-bərəkət olacağı, elm və tibdə böyük irəliləyişlərin əldə ediləcəyi, üstün incəsənət anlayışının meydana gələcəyi, texnologiyanın bütün nemətlərinin insanların xidmətinə veriləcəyi bildirilir.

## Qızıl əsr ilə müjdələnmək

Axırzamanın ilk dövrlərində dünya Allahı inkar edən bəzi fəlsəfi cərəyanların təsiri ilə degenerasiyaya məruz qalacaq. Bəşəriyyət yaradılış məqsədindən uzaqlaşacaq, nəticədə, böyük mənəvi boşluq və əxlaqi çöküntü əmələ gələcək. Bütün dünyada böyük fəlakətlər bir-birini izləyəcək; müharibələr, qarşıdurmalar, zülm baş verəcək və bəşəriyyət: "Bu vəziyyətdən necə xilas olacağıq?" - deyə həll yolları axtarmağa başlayacaq. Bu vəziyyət İslam dininə mənsub müxtəlif bölgələrdə yaşayan insanlara da aid olacaq. Bu gün dinini azad yaşamaq və ibadətlərini yerinə yetirmək istəyən müsəlmanlar böyük təzyiq altında yaşayır, qadınlar, uşaqlar, yaşlılar amansızlıqla qətlə yetirilir. Axırzamanın əlamətlərindən biri olan bu vəziyyət müsəlmanları əzmək və İslam dünyasının böyük birlik qurmasının qarşısını almaq istəyən dindənkənar qüvvələr tərəfindən hər gün daha şiddətlə davam etdirilir. Ancaq bu müharibə və qarşıdurma dövrünün ömrü çox qısa olacaq. Çünki Allah axırzamanın bu böyük qarışıqlığı içindəki insanları xilas edəcəyini və onları mübarək dövrə çıxaracağını müjdələyir.

## Allahın möminlərə müjdəsi

Bu dövr Allahın möminlərə bir lütfü, Peyğəmbərimizin (s.ə.v) də müjdələdyi kimi, cənnətin kiçik modeli olacaq. Bolluq-bərəkəti, insanlar üçün hər cür rahatlıq və sülh mühiti ilə hər müsəlmanın görmək istədiyi bu dövr həyatını Allaha həsr etmiş inanclı qullar üçün dünya həyatında böyük mükafatdır. Bu gözəl dövrlə müjdələnmək də, şübhəsiz ki, müsəlmanlar üçün böyük şərəfdir.

Ancaq bu şərəflə birlikdə məsuliyyət də gəlir. Madam ki, axırzamandır, onda hər müsəlman axırzamanın çətin şərtləri altında ideoloji mübarizə aparmaq üçün özünü yetişdirməli və qətiyyətli olmalıdır. Məzlum müsəlmanların vəziyyəti bunu bizə hər gün



xatırladır. Məsum və müdafiəsiz insanlar ağır silahlı düşmənlərin gülləsinə hədəf olarkən, qaçqın düşərgələrində milyonlarla insan aclıq və səfalət içində yaşayarkən, bir çox müsəlman cürbəcür işgəncə və pis rəftara məruz qalarkən vicdanlı insanların özünü görməməzliyə vurması qeyri-mümkündür.

## Hamımız məsuluq

İnsanların çarəsizliklə: "Mən nə edə bilərəm ki?" - deyə düşünməsi də yanlışdır. Unutmaq olmaz ki, yer üzündəki fitnə-fəsadın təməli dinsizlikdir və dinsizliyə qarşı ideoloji mübarizə aparmağa hər kəsin imkanı var. İnsanlara Allahın varlığını izah etmək, Allah qorxusunu öyrətmək, məhşər günündə baş verəcək hadisələri xatırlatmaq, gözəl əxlaqı və dünyada yaşama məqsədimizi təbliğ etmək bu amansız hadisələrin sona çatması üçün atılmış mühüm addımlardır. Vicdanlı insanların birləşərək göstərəcəyi cəhd mütləq uğurla nəticələnəcək.

Dinsizliyin məhvedici təsirlərini aradan qaldırmağa, bunun əvəzinə din əxlaqının gözəlliklərini gətirməyə istiqamətlənmiş hər cəhd, eyni zamanda, dövrümüzdəki müsəlmanlara göstərilən ən böyük yardımdır. Sülhü, sevgini, şəfqəti əsas götürən bu mübarizə insanların vicdanlarını hərəkətə gətirəcək və məzlum insanların zülm görməsinin qarşısını alacaq. Bir mühüm cəhəti də vurğulamaq lazımdır ki, müsəlmanların təzyiq və zülm gördüyü ölkələrin böyük əksəriyyəti keçmişdə müsəlman liderlərin idarəçiliyi altında sülh və əmin-amanlığı görüblər.

Müsəlman millətimiz keçmişdə olduğu kimi, bu müqəddəs dövrdə də bütün dünya insanlarının həsrətini çəkdiyi sülh və əmin-amanlıq mühitini təmin etməkdə rəhbər rol oynayacaq və önümüzdəki dövr bütün müsəlmanlar üçün aydın dövr olacaq.
Gözlənilən bahar, Allahın iznilə, çox yaxındır.

**Allah aranızdan iman gətirib yaxşı işlər görənlərə - yalnız Mənə ibadət edərlər, heç nəyi Mənə şərik qoşmazlar deyə - onları özlərindən əvvəlkilər kimi yer üzünün varisləri edəcəyini, onlar üçün onların Allahın Özü bəyəndiyi dinini möhkəmləndirəcəyini və onların qorxusunu sonra əmin-amanlıqla əvəz edəcəyini vəd buyurmuşdur... (Nur surəsi, 55)**

# Fosillər Təkamülü TƏKZİB EDİR





**SÖLEKANT (LATİMERİYA)**

Yaş: 240 milyon il
Dövr: Trias

Tapıldığı yer: Ambilob, Madaqaskar
Sölekant (Coelacanth) təkamül nəzəriyyəsini çıxılmaz vəziyyətdə qoyan 400 milyon illik balıqdır. Sölekant-ın 400 milyon il ərzində heç bir dəyişikliyə məruz qalmaması və 400 milyon illik dövrdə baş vermiş qitə hərəkətlərinə, iqlim dəyişikliklərinə, ətraf mühit şərtlərinə baxmayaraq, quruluşunu qoruması təkamülçüləri tamamilə çarəsiz qoymuşdur. Sölekant canlıların təkamül yolu ilə meydana gəldiyini və canlılarda davamlı təkamül prosesi baş verdiyini təkzib edir.



**İLAN BALIĞI**

YAŞ: 95 milyon illik
DÖVR: Təbaşir
TAPILDIĞI YER: Hjoula, Liviya

Bu canlı, yaradılmış bütün canlılar kimi milyonlarla il ərzində heç bir dəyişikliyə məruz qalmamışdır. Allah bütün canlıların xüsusiyyətlərini mühafizə etmişdir. Bu da canlıların təkamül keçirmədiklərinin və onların uca Allah tərəfindən yaradıldığının sübutudur.

Fosil nədir?

Fosillər uzun zaman əvvəl yaşamış canlıların bu günə gəlib çatan qalıqları və ya izləridir. Minlərlə il yaşı olan fosillər olduğu kimi, miyonlarla, hətta yüz milyonlarla il əvvələ aid canlılara məxsus fosillər də var. Fosil orjinal canlı ilə tamamilə eyni quruluşa sahibdir, lakin tərkib hissəsi üzvi maddələr deyil, daşdır.

Bütün bu fosil nümunələri olduqca vacib həqiqəti ortaya qoyur. Bütün canlılar dünya üzərində yaradıldıqları ilk andan etibarən eyni quruluş, ölçü və xüsusiyyətlərə sahibdir.

Ən qədim geoloji dövrlərdə yaşamış canlılar belə ən kiçik dəyişikliklər keçirmədən bu günə qədər gəlib çıxıblar. Bu, elmi gerçəkdir və bütün məxluqatın Allah tərəfindən yaradıldığının elmi dəlilidir.




# Dördayaqlıların (tetrapodların) yaradıldığını bilirdiniz mi?

Dördayaqlılar (tetrapodlar) quruda yaşayan onurğalılara verilən ümumi addır. Bu təsnifata amfibiyalar (suda-quruda yaşayanlar), sürünənlər və məməlilər daxildir. Təkamül nəzəriyyəsi dördayaqlıların suda yaşayan balıqlardan təkamüllə əmələ gəldiyini iddia edir. Halbuki, bu iddia həm fizioloji və anatomik cəhətdən ziddiyyətlidir, həm də iddianın fosil qeydlərində heç bir dəlili yoxdur.

Bir balıq quruda yaşamağa uyğunlaşması üçün tənəffüs sistemi, ifrazat mexanizmi, skelet quruluşu kimi müxtəlif cəhətlərdən böyük dəyişikliklər keçirməlidir. Qəlsəmələr ağciyərə çevrilməli, üzgəclər bədən ağırlığını daşıyacaq şəkildə ayaq xüsusiyyəti qazanmalı, orqanizmdən artıq maddələri xaric etmək üçün böyrəklər əmələ gəlməli, dəri maye itkisinin qarşısını alan quruluş əldə etməlidir. Bütün bu dəyişikliklər baş vermədikcə bir balıq quruya çıxdıqda ən az bir neçə dəqiqə yaşayar. Ona görə, canlı ilk dəfə meydana gəldiyi andan etibarən tam bədənə sahib olmalıdır.

Bu isə dördayaqlıların təkamülçülərin iddia etdiyi kimi, təsadüfən əmələ gəldiyinin deyil, yaradıldığının saysız-hesabsız dəlillərindən biridir.



Heç bir canlıda olmadığı kimi qurbağaların mənşəyində də təkamül prosesinə rast gəlinmir. Elmə məlum olan ən qədim qurbağalar balıqlardan tamamilə fərqli və özünəməxsus quruluşları ilə ortaya çıxıb. Dövrümüzdəki qurbağalarla da eyni xüsusiyyətlərə malikdirlər. Dominikan Respublikasında tapılmış yuxarıdakı kəhrəbanın içindəki qurbağa fosili ilə dövrümüzdə yaşayan nümunələri arasında heç bir fərq yoxdur.

